

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 47 (24.429)

23 noyabr 2024-cü il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Dağların qoynundan boylanan cənnət



### O günlərdən bu günlərə

Həmin yaz bahar çiçəkləri açmaq bilmirdi bu yurdun. Yaz da gəlmək istəmirdi bu dağlara. "İstisu"yu buza dönmüşdü yazın oğlan çağında, qan ağlayırdı dağı-daşı Kəlbəcərin. Başını duman almışdı uca dağların. Alınmaz qalanın sakinlərinin canına üşütmə düşmüşdü Xocalı meşələrində donan körpələri görəndən. Şuşa satqınların xainliyinə qurban gedəndən tüstüsü ərşə qalxmışdı Kəlbəcərin. Laçın quşu daha qanad saxlamırdı Kəlbəcər dağlarında. Soyuq qış 3 il idi, çəkilib getmirdi ki, getmirdi. Bahar çiçəkləri qana boyanır, cənnət meşələri igid oğullarına məzar olurdu Kəlbəcərin. Uca dağların zirvəsində dayanan bu şəhərin qol-budağı budanırdı sapı öz meşəsində bitən ağaclardan olan baltalarla. Ömər aşırımının keçilməz yolları xainlərin əlləri ilə keçilmişdi.

Səhifə ➡ 2

## Azərbaycan-Özbəkistan əlaqələrinin Böyük Qayıdışa yeni töhfəsi



Səhifə ➡ 3

## Yaşıl dünyaya gedən yol düşüncələrdən başlayır




Səhifə ➡ 5

## Nazirlər Kabinetində Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcə layihəsinin müzakirəsi keçirilib

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilovun sədrliyi ilə muxtar respublikanın 2025-ci il büdcə layihəsinin müzakirəsi ilə bağlı müşavirə keçirilib.

Müşavirəni giriş sözü ilə açan Baş nazir bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkə iqtisadiyyatının müxtəlif sahələri ildən-ilə davamlı inkişaf etməkdə, regionların sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində mühüm layihələr icra olunur. İşğaldan azad olunan regionların bərpası istiqamətində həyata keçirilən layihələrin icrası, o cümlədən iqtisadiyyatın diversifikasiyasının genişləndirilməsi istiqamətində görülən tədbirlər mühüm əhəmiyyətə malikdir.

Bildirilmişdir ki, muxtar respublikanın növbəti dövr üzrə sosial-iqtisadi inkişaf proqnozları ətraflı təhlil edilmiş, muxtar respublikanın büdcəsinin gəlir və xərcləri proqnozlaşdırılmış və müvafiq layihə sənədləri hökumətin müzakirəsinə təqdim edilməsi üçün aidiyyəti üzrə hazırlanmışdır. Təsdiq edilmək üçün təqdim olunan büdcə layihəsinin muxtar respublikanın iqtisadi inkişafının müvafiq qaydada tənzimlənməsində xüsusi əhəmiyyətə malik olacağı vurğulanmışdır.

Baş nazir hər bir qurumun aidiyyəti üzrə fəaliyyətinin təşkili və muxtar respublika iqtisadiyyatının inkişafına töhfə verməsi üçün layihələrin tərtibatı və icrasında səmərəliliyin nəzərə alınmasının əhəmiyyətini, ən əsası xərclərin zəruri istiqamətlər üzrə müəyyənləşdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov çıxışında bildirib ki, 2025-ci il üçün Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri 527 959 000 manat məbləğində proqnozlaşdırılır.

Səhifə ➡ 5

## "Şərq qapısı" 103 yaşını qeyd edir



Bir neçə il əvvəl çapdan çıxmış "Molla Nəsrəddin" ensiklopediyası" adlı çox qiymətli bir kitabda "Şərq qapısı"nın 103-cü ildönümü ərəfəsində qəzetimizlə bağlı oxuduğum bir hissəni xatırladım: "Şərq qapısı" qəzeti nəşri müddətində Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni mühitinə güzgü tutmuş, fəaliyyətində mətbuatın köklərinə, ədəbi qaynaqlarına müraciət etməkdən çəkinməmişdir. Qəzet "Molla Nəsrəddin"in sözü ilə" adlanan rubrikasında cəmiyyətdəki nöqsanları öz səhifələrində işıqlandırmaqdan çəkinməmiş, tənqidi yazıların çapına şərait yaratmışdır".

Çox doğru olan bir qənaətdir. "Şərq qapısı", "Əkinçi" və "Molla Nəsrəddin" ənənələrini öz fəaliyyətində davam etdirməyi vacib sayan bir mətbu orqanı kimi ötən bir əsrdən artıq bir dövrdə rastlaşılan neqativ hallara, inkişafımıza mane olan əngəllərə qarşı barışmaz mövqedə dayanıb. Həmin yazıda da deyildiyi kimi: "Şərq qapısı" qəzetindəki satira xətti "Molla Nəsrəddin" jurnalının mövqeyinin əks-sədasıdır... Qəzet mətbuat tariximizlə bağlı maraqlı yazılar dərc etmişdir. "Molla Nəsrəddin" jurnalının nəşri tarixinə işıq salan bir neçə məqalə bu baxımdan xüsusilə əhəmiyyətlidir. İbrahim Mollayevin müəllifi olduğu "Molla Nəsrəddin"in naxçıvanlı müxbirləri" ("Şərq qapısı" qəzeti, 30 iyul 1965), M.Yusifov tərəfindən qələmə alınan "Molla Nəsrəddin" jurnalı Naxçıvan haqqında" ("Şərq qapısı" qəzeti, 21 aprel 1976) diqqəti cəlb edir. Bu siyahını bir qədər də artırmaq olar".

Səhifə ➡ 9

# Dağların qoynundan boylanan cənnət



*(əvvəli 1-ci səhifədə)*

Bağı-bağçası solmuşdu bu gözəl diyarın, dil açıb "Getməyin, məni tərk etməyin", – deyə bilmirdi qız-gəlinə Kəlbəcər. Necə deyərdi axı Xocalıda anası ilə bərabər şaxtalı meşələrdə buz tutan körpələrin səssiz harayı qulağında eşidilə-eşidilə, necə dil açardı axı Arazın lal sularına qərq olan zəngilanlıların səsini duya-duya. Laçında sıldırım qayalardan atılan qız-gəlinin başından açılan örpəyini görə-görə. Deyə bilmədi, düz 30 il lal oldu Kəlbəcər. Şəhid qanına bələnən torpağına murdar düşmən ayağı dəyəndə hay-harayı göyə qalxdı. Torpağına dəfn olunan erməni tabutlarını çürütmədi onların murdar bədəni bu torpağa qarışmasın deyə. Qan gəldi yollara dikilən gözlərinə. 30 il ərimədi Murovun qarı. Buz kəsdi Ömər aşırımını. Düz 30 il yuxuları qarışdı Kəlbəcərin ta ki həmin ilə kimi. Şuşa dağları səs edib xəbər gətirmişdi ona "Hazır ol! İgid oğullar gəlir, səni də mənim kimi azad edəcəklər", – deyə. Şuşa dağlarından çəkilən dumandan sonra doğulan Günəşin istisi Kəlbəcəri də isidirdi artıq. Həsrətli gözləri yol çəkirdi Kəlbəcərin.

### Biz qayıtdıq

Və bir səhər qırılan ağacların səsi, tüstülənən evlərin alovunun istisi onu yuxudan oyatdı. İllərdir, ürəyinə dərd olub onu nəfəs almağa qoymayan erməni leşləri də torpağından çıxarılmışdı artıq.

Həmin gün dərindən bir ah çəkdi Kəlbəcər.Yenə eyni mənzərə var idi, evlər od tutub yanır, meşələr qırılır, insanlar onu tərk edirdi. Yox, burada bir fərq var idi. Bu dəfə gedənlər çağırılmamış qonaqlar idi. Özləri ilə ölülərinin tabutlarını da aparırdılar. Çünki onlar hər kəsi özü kimi bilən faşistlərdən də betər ermənilər idilər. Axı özləri ölü-diri demədən vəhşicəsinə divan tuturdu hər kəsə. İşğal zamanı bir neçə saat vaxt verib "Tərk edin Kəlbəcəri", – demişdi quldurlar. Zorla gəldikləri torpaqlardan artıq getmək vaxtı gələndə isə igid, qalib Azərbaycan əsgərindən vaxt dilənirdilər.

Gəldikləri kimi də getdilər, yenə dağıdıb, yandırıb. Amma bir şeyi unudurdular ki, torpaq öz sahibinin əlində olanda cənnətə dönür. Bundan əmin idi bu dağlar cənnəti. Əmin idi, ona görə də qəlbi heç kədərlənmədi evləri, ağacları yandırıb gedəndə çağırılmamış qonaqlar. Əksinə, sevindi ki, od-alov düşmənin izini sildi qoynundan. Artıq bu torpaqda bir ayaq izi var o da Azərbaycan əsgərinin ayaq izidir.

### Biz isə qurub-yaradanıq

Payızın son günləri olsa da, çiçək açdı Kəlbəcər torpağı üçrəngli Azərbaycan Bayrağı ilə bəzənəndə. Qəhrəman Azərbaycan əsgəri 44 gündə elə bir igidlik göstərmişdi ki, Kəlbəcəri bir güllə atmadan azad etmişdi. Şad xəbəri Ali Baş Komandan xalqa müraciətində verərək dedi: ***"Kəlbəcərdə mənfur düşmən digər cinayət də törədib, qanunsuz məskunlaşma aparıb. Həm Ermənistan ərazisindən qanunsuz yollarla orada insanlar məskunlaşıb, həm də xarici ölkələrdən. Bu isə hərbi cinayətdir və Cenevrə Konvensiyasına görə hərbi cinayət sayılır. Biz düşməni məsuliyyətə cəlb edəcəyik, cavab verəcəkdir, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə. Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də, həmçinin Cəbrayılda da həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan. Biz isə qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik".***



Müzəffər Sərkərdənin Kəlbəcərin qəlbində zəfər bayrağını göylərə çəkdiyi gün dağların başındakı cənnət öz xoşbəxt gələcəyinə qədəm qoydu. Azad edilən ərazilərə həyat qayıtdıqca bahar çiçəkləri daha gözəl açmağa başladı. Dağların zirvəsindəki cənnətin "İstisu"yunun şöhrəti özünə qayıtdı. Yeni-yeni yaşayış binaları inşa edildi. Öz çırağımız yanmağa başladı Kəlbəcərdə. Keçilməz dağların qoynu yarılıb yollar açıldı.

### Öz doğmalarına qucaq açır Kəlbəcər

O, 30 il bu Vətənin ən yaralı yeri oldu. Şuşa, Laçın kimi əsir düşən yurdu. İllərlə onun keçilməz meşələrində düşmən gəzəndə, sərin bulaqlarından içib, "İstisu"yunda dincələndə, qızıl yataqlarını bölüb parçalayanda həmin meşələrin qaranlığında qərq olub, isti suda yanıb qovruldu bizim qəlbimiz. Təsəllisi var idi yurdundan didərgin düşən 60 min kəlbəcərlinin. Əmin idilər, bir gün öz ocaqlarına geri dönəcəklərinə.

Çünki bu xalqın ***"Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar"***, – deyən Ulu Öndəri, verdiyi hər sözə sadiq qalan Prezidenti var idi. Və bu gün dağların incisi Kəlbəcər öz gözəl günlərinə geri dönür. Dağlar qol açıb doğmalarını qucaqlamağa can atır artıq.

Biz bu günlərdə Kəlbəcərin azad oluşunun 4-cü ildönümü ilə bərabər, Vətən torpağına qurban gedən onlarla igid oğulların da şəhadət şərbəti içdiyi günün ildönümünü qeyd edirik.

Kəlbəcər bir güllə atılmadan geri qayıtdı, çünki Azərbaycan xalqı 44 gündə 3 min can qurban etmişdi düşmən gülləsinə. Yüz min oğul döyüşmüşdü Şuşa, Laçın Kəlbəcər azad olsun deyə. Döyüşə-döyüşə şəhidini, yaralı döyüş yoldaşını çiynində dağ yuxarı daşıyıb qalib olmuşdu Azərbaycan Ordusu.

İllər keçəcək, bağrımızda açılan yaralar sağalacaq, amma bu xalq hər il işğaldan azad olan şəhər və kəndlərinin yenidən doğulduğu gün ilə bərabər, torpaq olan oğullarını da yad edəcək; Şuşa olan Adilləri, Murov olan İbrahimləri, Laçın olan Əliləri, Kəlbəcər olan İlkinləri. Vətən üçün can qurban edən oğulları çiynində daşıyan igidləri.



**Ramiyə ƏKBƏROVA**

# Azərbaycan-Özbəkistan əlaqələrinin Böyük Qayıdışa yeni töhfəsi

## *Tarixi ənənələrin bərpasına, qeyri-neft sektorunun inkişafına xidmət – Xankəndi tikiş fabriki*




Azərbaycanın yaxın coğrafiyada yerləşən türkdilli ölkələrlə mövcud zəngin tarixi ənənələri, dərin mədəni bağları həmin dövlətlərlə siyasi müstəvidə, iqtisadiyyatın müxtəlif sahələrində daha uğurlu əlaqələr qurmasını şərtləndirir. Bu baxımdan cari il avqustun 22-də müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Özbəkistan münasibətlərini Azərbaycan-Türkiyə qardaşlığından sonra dünyada qibtə olunacaq növbəti nümunəvi, etibarlı dostluq, tərəfdaşlıq əlaqəsi kimi dəyərləndirmək olar. Ölkələrarası yaxınlıq Türk Dövlətlər Təşkilatı, TÜRKSOY, TÜRKPA, Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası və digər platformalar vasitəsilə özünü bariz şəkildə göstərir. Bakıda Özbəkistan, Özbəkistanda isə Azərbaycan Ticarət evlərinin, ticarət nümayəndəliyinin açılması, təhsil, maşınqayırma, inşaat, mədən, əczaçılıq, pambıqçılıq, turizm sahələrində həyata keçirilən layihələr birgə əməkdaşlığın geniş perspektivlərindən xəbər verir. Dünyanın 196 ölkəsindən yüksək səviyyəli dövlət və hökumət nümayəndələrinin bir araya gəldiyi COP29 çərçivəsində aparılan dialoqlar, imzalanan sənədlər, xüsusən də Xankəndi şəhərində tikiş fabrikinin açılış mərasiminin keçirilməsi ikitərəfli əlaqələrin möhkəmliyinin göstəricisi kimi birgə fəaliyyətə dair yeni üfüqlər açdı...

Regionda onilliklər boyu cərəyan edən tarixi-siyasi hadisələr belə deməyə əsas verir ki, qardaş ölkə Türkiyə ilə əlaqələrimizdə olduğu kimi, bu qədim türk kökənli dövlətlə də münasibətlərimizdə "Dost dar gündə tanınar" tandemi öz sözünü deyir. Belə ki, 30 illik işğal zamanı Özbəkistanın Ermənistanla diplomatik münasibətlər qurmaması, bu illər ərzində Ermənistanda səfirliyini açmaması, həmçinin Ermənistanın da Daşkənddə səfirlik açmasına icazə verməməsi Azərbaycana olan dost sevgisinin, qardaş hörmətinin əlaməti kimi çox dəyərlidir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) qoşunlarının bölgəyə yerləşdirilməsi ilə bağlı çağırış edəndə ilk etirazını bildirən dövlətlərdən biri olan Özbəkistan müharibədən sonra Azərbaycanın azad olunan torpaqlarda apardığı quruculuq strategiyasına da töhfələr verir. Ötən il avqustun 23-də açılışı olan, Şavkat Mirziyoyevin təşəbbüsü ilə Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik orta məktəbin tikilməsi ölkəmizin Böyük Qayıdış siyasətinə dəstəyin göstəricisidir. Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə görüşü çərçivəsində videobağlantı vasitəsilə açılış mərasimi keçirilən Xankəndidəki tikiş fabriki də növbəti qardaşlıq dəstəyi olmaqla bölgədə məşğulluğun artırılmasında, Qarabağın inkişafında vacib əhəmiyyət daşıyır. Dövlətimizin başçısı açılış mərasimində çıxışı zamanı münasibətlərin inkişafından məmnunluğunu dilə gətirdi, yeni istifadəyə verilən fabriki iki ölkə arasında birliyin növbəti rəmzi kimi dəyərləndirdi. Sitat: ***"Bu fabrik birliyimizin daha bir rəmzidir. Mən qardaşım Şavkat Miromonoviçə minnətdarlığımı bildirirəm ki, bizim özbək dostlarımız qısa müddətdə Xankəndidə minlərlə insanın çalışacağı və təbii ki, mütləq əksəriyyəti qadınlardan ibarət gözəl müəssisənin yaradılmasına kömək göstərdilər. Bu, məşğulluqdur, bu, istehsaldır, bu, Qarabağın inkişafıdır..."***

Azərbaycanın qədim şəhərində yeni tikiş fabrikinin istifadəyə verilməsinin mahiyyəti dərin, perspektivi böyükdür. Ən əvvəl bu addım vaxtilə Azərbaycanın sənaye və mədəniyyət mərkəzi kimi tanınan, ölkə iqtisadiyyatına töhfələr verən Xankəndidə tarixi ənənələrin bərpasına xidmət edir. Ölkəmizin ictimasi-siyasi, sosial-iqtisadi həyatında mühüm mərhələ sayılan ötən əsrin 70-80-ci illərinin mənzərəsinə nəzər yetirdikdə görürük ki, regionda istehsal gücünə, məhsul keyfiyyətinə görə seçilən bir sıra sənaye müəssisələri məhz Qarabağın bu dilbər bölgəsində fəaliyyət göstərib. Bu sırada ipək kombinatı, ayaqqabı, xalça, tikiş fabrikləri, süd kombinatı və şərab zavodunu nümunə gətirmək olar. Həmin müəssisələr Xankəndinin iqtisadi inkişafında müstəsna rola malik olmaqla yanaşı, həm də Cənubi Qafqaz regionunun sənaye potensialının gücləndirilməsi baxımından da xüsusi seçilirdi. Təəssüf ki, 1988-ci ildən etibarən Qarabağın digər əraziləri kimi, bu tarixi yurd yerimiz də erməni vandalizminə məruz qaldı, əzəli torpağımızın bütün maddi-mədəni sərvətləri talan edildi, infrastruktur dağıdıldı, müəssisələr viran qoyuldu... Və 36 ildən sonra qardaşlıq rəmzi sayılan yeni tikiş fabrikinin istifadəyə verilməsi isə həm tarixi ənənələrin bərpasına, bölgəyə qayıdan sakinlərin, xüsusilə də qadınların məşğulluğunun artırılmasına xidmət edəcək, həm də ölkələrarası birgə əməkdaşlığın yeni mərhələdə inkişafına töhfə verəcək. Ümumi investisiya dəyəri 11 milyon manat təşkil edən fabrik həm yerli, həm də Özbəkistan xammalı əsasında fəaliyyət göstərəcək. Müəssisədə istehsal olunacaq məhsulların 80 faizi müxtəlif ölkələrə ixrac ediləcək. Ərazisi 1,2 hektar olan fabrikdə ildə 3-5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal olunacaq. Ümumilikdə, burada 800 iş yeri yaradılacaq. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 250 nəfər hazırda işlə təmin edilib.

COP29 çərçivəsində Xankəndidə tikiş fabrikinin açılışı ilə qeyri-neft sektorunun inkişafına verdiyi önəmi bir daha ortaya qoyan Azərbaycanın bu addımı həm də uğurla sədrlik etdiyi beynəlxalq konfransa kölgə salmağa çalışanlara növbəti effektiv siyasi mesaj təsiri də bağışlayır. Ümumiyyətlə, ölkəmizdə son illərdə aparılan iqtisadi islahatlar, əlverişli biznes mühitinin formalaşdırılması yeni sənaye və istehsal sahələrinin yaradılmasına səbəb olub ki, bununla da dövlət siyasətinin əsas məqsədi sayılan neftdən asılılıq artıq tamamilə aradan qaldırılmaq üzrədir. Ötən ilin makro iqtisadi göstəriciləri də bu sahədə əhəmiyyətli irəliləyişdən xəbər verir. Belə ki, 2023-cü ildə ölkədə 123,0 milyard manatlıq və ya 2022-ci illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal edilib, ÜDM-in 63,1 faizi qeyri-neft-qaz sektorunun payına düşüb. 2024-cü ilin yanvar-sentyabr ayları ərzində isə 92,8 milyard manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,7 faiz çox ümumi daxili məhsul istehsal olunub. ÜDM-nin 66,1 faizi qeyri-neft-qaz sektorunu əhatə edib. Beləliklə, qeyri-neft sektorunun gəlir baxımından neft sektorunu üstələməsi və artım tempi ölkəmizin apardığı sənayeləşmənin, aqraryönümlü siyasətin uğurlu nəticələrə yol açdığını göstərir. Əminliklə demək olar ki, Azərbaycanla Özbəkistan arasında uğurlu birgə fəaliyyətin, əməkdaşlığın rəmzi sayılan Xankəndidəki tikiş fabriki Qarabağda yüngül sənayenin inkişafı üçün yeni imkanlar açmaqla bölgənin investisiya cəlbediciliyini artıraraq qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verəcək.

Ümumilikdə, onu deyə bilərik ki, Xankəndidə tikiş fabrikinin fəaliyyətə başlaması "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına təkan verməklə bölgənin həm gələcək demoqrafik vəziyyətinə, həm də sosial-iqtisadi mənzərəsinə müsbət təsir göstərəcək. Əminik ki, COP29 çərçivəsində atılan bu addım xarici sərmayədarların ölkəmizə, xüsusilə də işğaldan azad olunan torpaqlara marağını daha da artıraraq bölgədə yeni rəqabətqabiliyyətli müəssisələrin yaradılmasına yol açacaq və Azərbaycanın reallaşdırdığı uğurlu Böyük Qayıdış siyasəti sayəsində qədim şəhərimiz əvvəlki əzəmətinə, şöhrətinə qovuşacaq.

**Nail ƏSGƏROV**



# Naxçıvandan başlanan milli ideologiya

***34 il əvvəl Ulu Öndər Heydər Əliyevin Naxçıvanda ucaltdığı bayraq Zəfər rəmzinə çevrilərək bu gün Azərbaycanın hər bir guşəsində dalğalanır.***

***Tarixən formalaşmış ənənələr, mental baxışlardan qaynaqlanan milli-mənəvi dəyərlər hər bir etnosun kimliyinin, kamillik səviyyəsinin təcəssümü olmaqla yanaşı, həm də bəşər sivilizasiyasına dəyərli töhfədir. Milli kimliyi ifadə edən bu dəyərlər, eyni zamanda hər bir xalqın mənəvi sərvəti, toxunulmaz xəzinəsi, özünütəsdiq faktıdır.***



**Arzu ABDULLAYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent*

Tarixdən məlum olduğu kimi, Azərbaycan öz müstəqilliyini əldə etdiyi dövrlərdə xalqın milli kimliyinin pasportu hesab edilən dövlət atributları da yaradıldı. Azərbaycanlı milli düşüncəsində də əsas dövlət rəmzlərindən olan bayrağa münasibət tarixboyu özünü qabarıq göstərmiş, xalqımızın milli mövcudluq nişanəsi sayılmışdır. Müasir anlamda isə bayraq xalqın müstəqillik, suverenlik, milli azadlıq, istiqlal ideallarını simvolizə edir. Azərbaycan Respublikasının müstəqil, suveren dövlət kimi mövcudluğunu dövlətçilik rəmzlərindən olan Dövlət Bayrağı bütün dünyaya göstərir. Zəngin tarixi irsdən yararlanaraq uğrunda minlərlə insanın canından keçdiyi üçrəngli bayrağımız tarixi yolumuzun, milli ideologiyamızın təməl prinsiplərini tam mənası ilə izah edir.

1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti iki ilə yaxın mövcudluqdan sonra öz dövlət müstəqilliyini itirsə də, milli dövlətçilik ənənələrinin formalaşması baxımından mühüm rol oynamışdır. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və sovet hakimiyyətinin qurulması ilə bu bayraq aradan götürülmüşdür.

Tarix dəfələrlə sübut edib ki, xalqın vahid məqsədlər uğrunda birləşməsi üçün zəruri olan milli birlik böyük siyasi dühaların yaratdığı ideologiyalarda reallaşır. XX əsrdə xalqımıza bağlı bu şərəfli missiyanı Ümummilli Lider Heydər Əliyev həyata keçirmişdir. Ulu Öndər həyatının bütün dövrlərində milli ideologiyanın formalaşması və möhkəmlənməsi naminə müstəsna xidmətlər göstərmiş, milli şüurun inkişafına nail olmuş, xalqa məxsus adət-ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmış, Azərbaycançılığı milli ideologiyaya çevirməyə nail olmuşdur. Sovet İttifaqının dağılması ərəfəsində Ulu Öndər Heydər Əliyev siyasi bacarığı ilə Azərbaycan xalqını bəlalardan qorudu. Ümummilli Lider 1990-cı il iyulun 22-də Naxçıvana gələrək burada xalqın dərdinə şərik çıxdı. Müdrik siyasətçinin rəhbərliyi altında Naxçıvanda dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2009-cu il avqustun 4-də Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli mərasimdə söylədiyi geniş nitqində bu barədə demişdir: ***"Demək olar ki, ölkəmizin müstəqilliyinin bünövrəsi məhz o illərdə qoyulmuşdur. Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi".***

34 il əvvəl – 1990-cı il iyulun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıtması və siyasi fəaliyyətini davam etdirməsi respublikamızda milli dirçəliş hərəkatını yeni mərhələyə yüksəltdi. Naxçıvandan başlanan bu proses qısa vaxtda ölkəmizin ictimai-siyasi mühitində böyük hərəkata çevrilməklə Azərbaycanın dövlət müstəqilliyinin bərpası istiqamətində mühüm tarixi hadisələrin baş verməsinə səbəb oldu.

Müstəqilliyin qazanılmasına, onun qorunub saxlanmasına böyük əmək sərf edən dahi rəhbər Azərbaycanın dövlət müstəqilliyi elan edilməmişdən hələ bir il əvvəl, yəni 1990-cı il noyabrın 17-də üçrəngli Azərbaycan Bayrağını Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qaldırdı. Həmin sessiya tariximizdə Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələnin müzakirəsi, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar olmuşdur. Ali Məclisin 1990-cı il noyabrın 17-də Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün tarixi qərarlar qəbul edildi. Ulu Öndər bu barədə demişdir: ***"Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ Kommunist Partiyası da var idi, sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarılsın. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunsun – milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır".***

Dahi şəxsiyyətin işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərar müstəqil Azərbaycan Respublikasının dövlətçilik tarixində ilk və mühüm dövlət sənədi kimi özünəməxsus yerə malikdir. Həmin qərarda deyilirdi: *"Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır: 1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin. 2. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin. 3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının, bütövlükdə, Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin".* Həmin gün üçrəngli bayrağımız zala gətirilmiş, beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuşdur. Bununla da milli dövlətçiliyimizin dirçəliş prosesinin hüquqi əsaslarının yaradılmasına məhz Ulu Öndərimizin rəhbərliyi ilə Naxçıvandan başlanmışdır. O dövrdə dahi şəxsiyyətin Naxçıvanda həyata keçirdiyi tədbirlər müstəqillik tariximizdə mühüm mərhələ təşkil edir. Məhz Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə həmin sessiyada "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "Naxçıvan Muxtar Respublikası ali dövlət hakimiyyəti orqanı haqqında" tarixi qərarlar qəbul edilmişdir. "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərara əsasən müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuş, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın dövlət rəmzi kimi tanınması barədə vəsatət qaldırmışdır. Həmin dövrdə Ulu Öndər Heydər Əliyevin Naxçıvan parlamentində qəbul etdiyi qərarlar təkcə muxtar respublika üçün yox, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edirdi.

Bəli, müstəqillik yolunda ilkin addımlar Ümummilli Lider tərəfindən Naxçıvanda atılmışdı və bu, o vaxt baş verirdi ki, SSRİ kimi imperiya hələ tarix səhnəsindən silinməmişdi. Bununla Naxçıvanda başlanan demokratik proseslər tezliklə Azərbaycanı ayağa qaldırdı. Həmin vaxt Naxçıvan artıq Azərbaycanın siyasi mərkəzinə çevrilmişdi. Bakıda oturaraq Azərbaycanın müstəqilliyi barədə qərar qəbul etməyə tərəddüd edən ovaxtkı iqtidar bütün bu addımları düzgün qiymətləndirə bilmir, ya da qiymətləndirmək istəmirdi. Lakin Naxçıvan Ali Məclisi Ulu Öndərin rəhbərliyi ilə artıq milli dövlətçilik ənənələrinin təşəkkül tapmasına istiqamətlənmiş mühüm tarixi qərarları qəbul etməkdə davam edirdi.

Prezident cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında 2023-cü il 30 dekabr tarixli Sərəncamında bu hadisənin nə qədər tarixi əhəmiyyətə malik olduğu bir daha vurğulanmışdır: *"Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinin həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır".*

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi bərpa edilsə də, ölkə "olum və ya ölüm" dilemması ilə üz-üzə qalmışdı. Belə çətin bir vaxtda xalq nicat yolunu ancaq Ulu Öndərin timsalında görürdü. Milyonlarla insanın ümidli baxışları ona dikilmişdi. 1993-cü ildə xalq haqlı olaraq müdrik dövlət xadimina üz tutdu və onun timsalında həqiqi xilaskarını tapdı. Görkəmli dövlət xadimi bütün təhlükələrə baxmayaraq, xalqına dar gündə kömək etmək qərarına gəldi və tərəddüd etmədən 1993-cü ilin iyununda Bakıya qayıtdı. ***"Mən ömrümün qalan hissəsini də bundan sonra xalqıma həsr edəcəyəm",*** – deyən dahi rəhbər siyasi hakimiyyətə qayıdışından dərhal sonra müstəqilliyimizin qorunub möhkəmləndirilməsi üçün ən vacib tədbirlərə əl atdı. Mühüm siyasi-iqtisadi islahatlara və müstəqil dövlətçiliyin inkişafına maneə törədən daxili və xarici qüvvələrə qarşı kəskin mübarizə aparılmasına başlanıldı. Beləliklə, ölkəmizdə aparılan bütün islahatlar xalqın milli düşüncə tərzinin, vahid Azərbaycançılıq ideologiyasının inkişafına zəmin yaratdı. Xalqımız öz dahi rəhbərinin ətrafında sıx birləşməklə möhkəm iradə nümayiş etdirdi və bütün sınaqlardan üzüağ çıxmağı bacardı.

Bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, Ulu Öndərin siyasi kursu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Azərbaycan xalqı cənab İlham Əliyevin rəhbərliyi altında gələcəyə, yüksəlişə və inkişafa doğru dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu yolla inamla irəliləyir və Azərbaycanı hər bir ölkə vətəndaşının fəxr edəcəyi, qürur duyacağı bir məkana çevirir. Ötən illər aşkar şəkildə göstərdi ki, ölkə Prezidenti öz fəaliyyət dövrünü bu amalın reallaşmasına həsr etmiş, Ulu Öndərin müstəqillik və azadlıq ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf, demokratik hüquqi dövlət quruculuğu və siyasi sabitlik baxımından dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir. Azərbaycan Prezidentinin dövlət rəmzlərinə verdiyi yüksək dəyərin nəticəsidir ki, şanlı tariximizdən gələn milli dəyərlərə hörmət və ehtiram dövlətin təməl prinsipləri sırasında xüsusi yeri ilə seçilir. Azərbaycan üçrəngli bayrağımız altında müstəqillik yolu ilə inamla irəliləyir, iqtisadi və siyasi gücünü getdikcə artırır. Dövlət başçısının Azərbaycan bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildiyi gündə – 2009-cu il noyabrın 17-də imzaladığı tarixi Sərəncam ilə təsis edilmiş Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü müqəddəs bayrağımıza, tarixi keçmişimizə və mənəvi-siyasi dəyərlərimizə, Naxçıvanda formalaşdırılan tarixi dövlətçilik ənənələrinə dövlət səviyyəsində olan diqqət və ehtiramın ən yüksək səviyyədə göstəricisidir.

Bu gün bayrağımız dövlətimizin gücünün və xalqımızın milli birliyinin nişanəsi kimi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə, ən yüksək zirvələrdə dalğalanır. Qürurvericidir ki, illər öncə Prezidentimizin dediyi ***"Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq"*** ifadələri bu gün real həyatda təsdiqini tapıb.

34 il əvvəl – 1990-cı il noyabrın 17-də Ulu Öndər Heydər Əliyevin Naxçıvanda ucaltdığı bayrağımız Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin əsl sərkərdə qətiyyəti ilə Qarabağda, Şərqi Zəngəzurda, bütün Azərbaycanda qürurla dalğalanmaqdadır.

Bu gün dövlət başçısı bölgəmizdə düşmənçiliyə son qoyulması, qarşılıqlı etimada əsaslanan davamlı sülhə, əmin-amanlığa nail olunması uğrunda təşəbbüslər irəli sürür. Bu təşəbbüslər isə Cənubi Qafqazda sabitlik və inkişaf üçün zəruri şəraitin yaradılmasına xidmət edir. Bu gün təkcə regional deyil, qlobal miqyaslı məsələlərdə də Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın mövqeyi və rəyi mütləq nəzərə alınır. Eyni zamanda da ölkəmizin beynəlxalq tədbirlərin keçirildiyi, sivilizasiyalararası dialoqların baş tutduğu vacib platformaya çevrilməsi onun dünyada hansı yüksək mövqeni tutduğunu sərgiləyir.

Azərbaycanın yüksəksəviyyəli mötəbər tədbirlərə uğurla ev sahibliyi etməsi dövlətimizin beynəlxalq aləmdə gündən-günə artan nüfuzundan xəbər verir. Xüsusən son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzu onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda sadəcə üzv kimi təmsil olunmur, həm də bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir.

Hazırda Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibliyi etməsi ölkəmizin qüdrətini bir daha dünyaya göstərir və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirir.

SSRİ kimi qüdrətli bir imperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından "sovet sosialist" sözlərinin çıxarılması, Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının muxtar respublikanın Dövlət Bayrağı kimi qəbul edilməsi milli dövlətçiliyimizin hüquqi əsaslarını elə formalaşdırdı ki, bu gün 196 ölkədən 72 min insan dünyanın qlobal ekoloji problemlərini Azərbaycanda müzakirə edir. Ən əsası isə o bayraq fonunda dünya Azərbaycanda birləşir.

## VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının 2024-cü ilin oktyabr ayı ərzində keçirdikləri vətəndaş qəbulu haqqında statistik məlumat

2024-cü ilin oktyabr ayında VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının vətəndaş qəbulları çərçivəsində 42 deputat tərəfindən 49 qəbul keçirilib. Qəbullarda 416 sakin iştirak edib, onlar tərəfindən, ümumilikdə, 264 məsələnin həlli ilə bağlı müraciət olunub.

Qaldırılan məsələlərlə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarına müraciət edilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Nazirlər Kabinetində Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcə layihəsinin müzakirəsi keçirilib

*(əvvəli 1-ci səhifədə)*

Maliyyə naziri büdcə gəlirlərinin əsas formalaşma mənbələrinə dair müvafiq məlumatlar təqdim etmişdir. Belə ki, 2025-ci ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri üzrə proqnozun 191 484 000 manatı və ya 36,3 faizi Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların payına düşməklə 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 17 469 000 manat və ya  10 faiz çox nəzərdə tutulmuşdur. Gəlirlər üzrə proqnozun 12 000 000 manatı və ya 2,3 faizi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin xətti ilə daxilolmaların payına düşməklə 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 816 manat az nəzərdə tutulmuşdur. 2025-ci ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin mədaxil mənbəsi hesab olunan gəlir və xərclərini tənzimləmək üçün Azərbaycan Respublikası büdcəsindən 320 529 000 manat dotasiya ayrılması nəzərdə tutulur. Dotasiya büdcə gəlirlərinin 60,7 faizini təşkil etməklə 2024-cü ilin təsdiq olunmuş büdcə gəlirləri ilə müqayisədə 15 931 000 manat və ya 4,7 faiz az nəzərdə tutulur. Bildirilib ki, layihədə muxtar respublika büdcəsində muxtar respublika yığımlarının xüsusi çəkisi, təqribən, 40 faiz həddinə çatdırılmışdır.



Vurğulanıb ki, 2025-ci ildə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə ayrı-ayrı gəlir növləri üzrə daxilolmalara əsasən fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar 46 876 000 manat proqnozlaşdırılır ki, bu da büdcə daxilolmalarının 8,9 faizini təşkil etməklə 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 3 876 000 manat və ya 9 faiz artıq nəzərdə tutulur. Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi üzrə daxilolmalar 17 000 000 manat nəzərdə tutulur ki, bu da büdcə daxilolmalarının 3,2 faizini təşkil etməklə 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 3 800 000 manat və ya 28,8 faiz artıq nəzərdə tutulur. Əlavə dəyər vergisi üzrə daxilolmalar 60 760 000 manat nəzərdə tutulur ki, bu da büdcə daxilolmalarının 11,5 faizini təşkil etməklə 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 8 260 000 manat və ya 15,7 faiz artıq nəzərdə tutulur. Sadələşdirilmiş vergi üzrə daxilolmalar 5 000 000 manat proqnozlaşdırılır ki, bu da büdcə daxilolmalarının 1 faizini təşkil etməklə 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 500 000 manat və ya 11,1 faiz artıq nəzərdə tutulur. Aksiz vergisi üzrə daxilolmalar 50 488 000 manat nəzərdə tutulur ki, bu da büdcə daxilolmalarının 9,6 faizini təşkil etməklə 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə eyni səviyyədədir. Dövlət rüsumu üzrə daxilolmalar büdcə daxilolmalarının 1,3 faizini təşkil etməklə 7 000 000 manat nəzərdə tutulur ki, bu da 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 573 000 manat və ya 8,9 faiz çoxdur.

Həsən İsmayılov onu da diqqətə çatdırıb ki, 2025-ci ilə Naxçıvan Muxtar Respublikası büdcəsinin xərcləri 540 000 000 manat məbləğində proqnozlaşdırılır ki, bu da 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 735 000 manat və ya 0,1 faiz çoxdur. 2025-ci il Naxçıvan Muxtar Respublikası büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclərə 463 772 593 manat və ya ümumi xərclərin 85,9 faizi, əsaslı xərclərə 76 227 407 manat və ya ümumi xərclərin 14,1 faizi həcmində vəsait yönəldiləcəkdir. İqtisadi təsnifata uyğun olaraq 2025-ci ilin büdcəsində əməyin ödənişinə 321 738 982 manat və ya xərclərin 59,6 faizi həcmində, malların (işlərin və xidmətlərin) satın alınmasına 66 798 737 manat və ya xərclərin 12,4 faizi həcmində, subsidiyaların ödənilməsinə 21 596 416 manat və ya xərclərin 4 faizi həcmində, qrantlar və digər ödənişlərə 47 934 478 manat və ya xərclərin 8,9 faizi həcmində, sosial ödənişlərə 5 703 980 manat və ya xərclərin 1 faizi həcmində, qeyri-maliyyə aktivlərinin alınmasına 76 227 407 manat və ya xərclərin 14,1 faizi həcmində vəsait proqnozlaşdırılır. 2025-ci il Naxçıvan Muxtar Respublikası büdcəsinin xərclərində sosialyönümlü xərclərin xüsusi çəkisi 62,7 faiz səviyyəsində və ya 338 848 765 manat məbləğində proqnozlaşdırılır ki, bu da 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə  müqayisədə 0,5 faiz və ya 1 804 754 manat azdır. Nazir qeyd edib ki, iqtisadi təsnifatın bəzi xərc maddələri, xüsusilə sosialyönümlü xərclər üzrə müvafiq azalma bəzi qurumların təşkilati hüquqi formasının dəyişilməsi ilə əlaqədardır.

Bildirilmişdir ki, 2025-ci il Naxçıvan Muxtar Respublikası büdcəsinin layihəsi gəlirlərin və xərclərin optimallaşdırılması, Naxçıvan Muxtar Respublikası büdcəsi xərclərinin səmərəliliyinin daha da artırılması, qanunvericilik, hüquq-mühafizə, elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, kənd təsərrüfatı və digər sahələrin infrastrukturunun, maddi-texniki bazasının yenilənməsi, habelə Naxçıvan Muxtar Respublikası büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatların büdcə sifarişləri və gözlənilən büdcə gəlirləri nəzərə alınmaqla hazırlanmışdır.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri vəzifəsini icra edən Abbas İsmayılovun, əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsini icra edən Fərid Bağırzadənin çıxışları dinlənilib.

Sonda 2025-ci ilin büdcə layihəsinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə göndərilməsi qərara alınmışdır.




## Naxçıvan COP29 çərçivəsində “Yaşıl dünya naminə həmrəy olaq!” şüarı altında keçirilən forumda uğurla təmsil olunub

COP29 çərçivəsində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Azərbaycan Milli QHT Forumunun təşkilatçılığı ilə “Cəza Çəkən Qadınların Cəmiyyətə Qayıdışı” İctimai Birliyi tərəfindən “Yaşıl dünya naminə həmrəy olaq” şüarı altında forum keçirilib.



“Şərq qapısı” xəbər verir ki, forumda Naxçıvan təmsilçiləri də iştirak ediblər. Muxtar respublikada COP29 və “Yaşıl dünya naminə həmrəylik ili”nə hazırlıqla bağlı yaradılmış işçi qrupunun rəhbəri, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifələrini icra edən Hüseyn Səfərov forumda “Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında cəzaçəkən məhkumların ekoloji cəhətdən faydalı olan əl işlərinin nümayişi” mövzusunda panel müzakirədə çıxış edib, sualları cavablandırıb.





Forum çərçivəsində Naxçıvan Dövlət Milli Dram Teatrının  və Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin birgə layihəsi olan “Odunçunun nağılı” səhnə əsəri göstərilib. Tamaşa izləyicilər tərəfindən böyük maraqla qarşılanıb.




Tamaşanın əsas leytmotivini “yaşıl enerji”yə keçid, təbiətin mühafizəsi, ekoloji təmizliyə çağırış təşkil edir. Məqsəd “yaşıl enerji” mənbələrinin genişləndirilməsi, ətraf mühitin qorunması və karbon qazı emissiyalarının azaldılmasına diqqəti çəkmək, Azərbaycanın iqlim təşəbbüslərində təbliğatını gücləndirməkdən ibarətdir.

Qeyd edək ki, forum çərçivəsində təşkil olunan yaşıl zonada Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində cəzaçəkən məhkumların Naxçıvan duzundan hazırladıqları ekoloji cəhətdən faydalı olan əl işləri də nümayiş edilib.

**Baş redaktordan**

**Sara ƏZİMOVA**

## Yaşıl dünyaya gedən yol düşüncələrdən başlayır




Qlobal məsələlərdə önəmli mərkəzlərdən birindəyik – AZƏRBAYCANDAYIQ. Həmişə belə məsələlərə həssaslıqla yanaşan, o məsələlərin həllinə daim dəstəkçi olan doğma ölkəmizdə, torpağımızdayıq. Ən müasir tariximizin möhtəşəm anlarına şahidlik edirik. Bu anılarla tariximizin daha bir yeni səhifəsi yazılır. Qürurlanırıq, fəxarət hissi keçiririk. Canımız qədər sevdiyimiz məmləkətimiz Azərbaycan COP29 kimi mühüm beynəlxalq tədbirə ev sahibliyi edir. Bununla həm də illərdir, qazandığı nüfuzunu dünyaya nümayiş etdirir. Belə möhtəşəm tədbirdə Azərbaycanın bir araya gətirdiyi  dünya liderləri, mütəxəssislər, ictimai və siyasi xadimlər bu sahədə mövcud problemlərin həlli yolunda mühüm addımlar atılmasına şərait yaradıb. Bir sözlə, biz dünyaya öz qlobal iqlim hədəfləri və ekoloji tərəfdaşlıqla bağlı mövqeyimizi güclü şəkildə göstəririk. Həm də dövlətimizin COP29 tədbiri gələcək yaşıl dünyamızı qorumağa həyəcan təbili olmaqla sabahkı nəsillərə ötürüləcək ən mühüm mənəvi mirasdır. İllər, əsrlər keçəcək, gələcək nəsillər öz dövləti ilə fəxr edəcəklər. Fəxr edəcəklər ki, dövlətləri qlobal iqlim siyasətində necə fəal rol oynayıb. Bir az əvvəl biz  İkinci Qarabağ müharibəsində misilsiz zəfərə imza atdıq. Bu, müstəqil Azərbaycanın gerçəkliyidir; bu bizim gücümüzdür, qüdrətimizdir. Uğurlarımıza uğur əlavə etmək üçün hər cür imkanlarımız var. Ancaq bu gücümüzü, qüdrətimizi həzm  edə bilməyənlər də az deyil. Bəlkə də, onlar düşünürdülər  ki, Azərbaycan bunu bacarmayacaq. Biz bacardıq. Bu möhtəşəm beynəlxalq tədbirə ev sahibliyi etməklə dünya ictimaiyyətinə aktual problemlərin həlli istiqamətində Azərbaycanın mühüm töhfələr verə biləcəyini sübut etdik. Cənab Prezident elə ilk çıxışında onlara mesajını verdi: ***“Mənim sonuncu mesajım o dairələrədir ki, onlar, demək olar, artıq bir ildir, boykotu təşviq edirlər. Onlar əllərində olan bütün vasitələrdən istifadə edirlər ki, Bakıdakı COP29-a qarşı boykot kampaniyası həyata keçirilsin. Onlara pis xəbərim var: bizim 196 ölkədən 72 min qeydiyyata alınmış iştirakçımız var. Onların arasında 80 prezident, vitse-prezident və baş nazir var. Beləliklə, dünya Bakıda toplaşıb və biz dünyaya deyirik ki, “Azərbaycana xoş gəlmisiniz!”*** Bir daha gördük ki, dünyada ədalətsizlik, ikili standartlar  hələ də hökm sürür. Dünyamızı  zülmət görənlər, xəmirləri ədalətizliklə yoğrulmuşlar var. Dünyanı qorumaq özümüzü, torpağımızı, varlığımızı, sabahımızı qorumaqdır. Həmin qüvvələrdə belə xeyirxahlıq keyfiyyətləri çoxdan ölüb. Bundan sonrakı tədbirlər də şoudan başqa bir şey deyil. Yaşıl dünyaya gedən yol  düşüncələrdən başlayır. Düşüncələrini dəyişməyənlər nə dünyanı qoruya bilər, nə də yaşıl dünya naminə atılan addımları. Düşmən düşməndir, bu öz yerində. Narahatlıq doğuran ən ciddi məsələ sapı özümüzdən olan baltaların ucuz şoularıdır. Möhtəşəm tədbirə ağız büzənlər, sosial şəbəkələrdə şirə dönürlər. Düşünürəm ki, onların  ruhu  dünyaya gəldiyi  torpağın havasından, suyundan yoğrula bilməz. Əsl vətənpərvər insanda  doğma yurd, torpaq sevgisi onun hissinə, duyğusuna hopur, canına, qanına işləyir. Ancaq  bu təqdirdə mən Azərbaycan, Azərbaycan da mən deməkdir. Belədirsə, Azərbaycanın çörəyini yeyən, suyunu içən, havasını udub böyüyən, bu torpaqda yaşaya-yaşaya Azərbaycanın hamımızın evi olduğunu unutmayın. Gəlin düşüncələrimizi yaşıla boyayaq. İnanın, içində boğulduğunuz zülmət işıqlanacaq. Rahat nəfəs alacaqsınız. Dəyişin düşüncələrinizi. Gəlin Azərbaycanımız üçün onun dünyada yeri,  nüfuzu uğrunda daim birlikdə mübarizə aparaq…

# ŞƏRQ QAPISI 103



## “Şərq qapısı” qəzeti 103 yaşını qeyd edib



Noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatının güzgüsünə çevrilən “Şərq qapısı” qəzeti rəsmi statusla 103 yaşını qeyd edib. Bu münasibətlə qəzetin kollektivi Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərində yerləşən abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüb, dahi şəxsiyyətin əziz xatirəsinə ehtiramlarını bildirib.

Sonra Heydər Əliyev Muzeyində “Şərq qapısı” qəzetinin müxtəlif tarixi dövrlərə aid nömrələri ilə tanışlıq olub. Qeyd edilib ki, dahi şəxsiyyətin 1991-1993-cü illərdə Naxçıvanda Ali Məclisin Sədri kimi verdiyi tarixi fərman və sərəncamlar, qərarlar ilk dəfə məhz bu mətbuat orqanında işıq üzü görüb. Ümummilli Lider Heydər Əliyev qəzetin fəaliyyətini yüksək qiymətləndirib, Moskvadan Naxçıvana qayıtdıqdan sonra “Şərq qapısı”na verdiyi müsahibədə ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”*** fikirlərini səsləndirib. Qəzet bütün dövrlərdə muxtar respublikada ictimai-siyasi həyatın, elm, təhsil, maarifçilik, ədəbiyyat sahələrində gedən inkişaf proseslərinin güzgüsünə çevrilib və bu gün də bu yöndə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Vurğulanıb ki, “Şərq qapısı” qəzeti bu gün tarixində ilk dəfə olaraq yaranmasının ildönümünü rəsmi statusla qeyd edir. Belə ki, cari il may ayının 1-də Prezident cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin “Şərq qapısı” qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsi və qəzetin fəaliyyətinin təmin olunmasının hüquqi əsasının yaradılması ilə əlaqədar hazırlanan “Media haqqında” qanuna dəyişikliyi təsdiqləyib. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq cari il avqustun 15-də isə mətbuat orqanının əməkdaşlarının əməkhaqları artırılıb. Yaxın gələcəkdə qəzetin maddi-texniki təminatının yaxşılaşdırılması üçün də işlər həyata keçiriləcək. Kollektiv bundan sonra da yaradılan şəraitdən istifadə edərək ölkəmizin, muxtar respublikanın ictimai-siyasi həyatında baş verən ən son yenilikləri geniş oxucu kütləsinə çatdırmaq üçün səylə çalışacaq.

## “Şərq qapısı” sosial media vasitəsilə vətənimizin səsidir



Hörmətli “Şərq qapısı” redaksiyası, 103 yaşınızın tamam olması münasibətilə sizi ürəkdən təbrik edirəm! Britaniyada yaşayan bir azərbaycanlı olaraq qəzetinizin Azərbaycan mətbuat tarixindəki əvəzsiz yerini və xalqımızın maarifləndirilməsi yolunda oynadığı rolu yüksək qiymətləndirirəm. Xaricdə yaşasaq da, “Şərq qapısı”nın sosial media vasitəsilə bizə Vətənimizin səsi olması qürurvericidir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan mətbuatına, xüsusilə “Şərq qapısı” qəzetinə göstərdiyi diqqət və qayğı həmişə yaddaşlarımızda qalacaq. Onun rəhbərliyi altında “Şərq qapısı” yeni inkişaf mərhələsinə qədəm qoyaraq milli dəyərlərimizi, tariximizi və həqiqətlərimizi bizlərə çatdıran mötəbər mətbuat orqanına çevrildi.

Qəzetinizə yeni yaradıcılıq nailiyyətləri və daha çox oxucu auditoriyası arzulayıram!

Yaradıcılıq fəaliyyətinizdə uğurlar diləyirəm!

**Hörmətlə,**
**Hafiz BAXŞƏLİYEV**
***Britaniya Azərbaycanlıları Assosiasiyasının rəhbəri***

## 103 yaşlı həmişəcavanımız



*Hörmətli “Şərq qapısı” qəzetinin kollektivi, sizi Almaniyadan salamlayıram.*

“Şərq qapısı” qəzeti hər bir naxçıvanlının yaddaşında xüsusi yerə malikdir. Bu qəzet daim Naxçıvan ziyalılarının bilik mənbəyi, həyat güzgüsü olub və bir əsrdən çoxdur ki, bu xalqa xidmət edir; Azərbaycan mətbuatına bir çox töhfələr verir. Gənclərə daim qucaq açır. Naxçıvanın ən çətin günlərində, informasiya blokadasına alındığımız vaxtlarda bu qəzet vasitəsilə səsimizi duyura bildik. 1990-cı illərdə, Sədərəkdə qızğın döyüşlər gedən vaxtlarda Ulu Öndər Heydər Əliyevin səyləri nəticəsində qəzetin nüsxələri paytaxt Bakıya göndərildi. Həmin günlərdə Naxçıvan sakinlərinin tək məlumat bazası bu qəzet idi.

İndi hər bir dövlət, xalq öz milli xüsusiyyətlərini, milli-mənəvi dəyərlərini qorumağa, bəşəriləşdirməyə çalışır. Çünki bunu etməsə, bir millət kimi sıradan çıxa bilər. Qloballaşan dünyada bir millət kimi qala bilməyimizin formulları məhz bunda təcəssüm olunur. Milli-mənəvi ideyaları kökə, genə, yaddaşa qaytarmaq, məhvərindən çıxmış çağdaş dünyada gənc nəsli milli-mənəvi unutqanlıqdan çəkindirmək jurnalistlərin müqəddəs borcudur. Bu yolda hər birinizə uğurlar arzu edir, qəzetin 103 yaşı münasibətilə sizi təbrik edirəm.

**Naibə HACIYEVA**
***Almaniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

## “Şərq qapısı” qəzetinin kollektivinə



“Шәрг гапысы” - 75
HAQQ DAİMA YANAR, SÖNMƏZ!
ŞƏRQ QAPISI
NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN VƏ NAZİRLƏR KABİNETİNİN ORQANI
„Шәрг гапысы“ гәзетинин коллективинә

Əziz dostlar!

Sizi – Naxçıvan Muxtar Respublikasının “Şərq qapısı” qəzetinin bütün kollektivini qəzetinizin 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

75 illik şərəfli yaradıcılıq yolu keçmiş “Şərq qapısı” qəzeti öz səhifələrində muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatını, əhalisinin qayğı, istək və arzularını dolğun əks etdirməklə öz oxucularının rəğbətini qazanmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra “Şərq qapısı” qəzetinin kollektivi öz fəaliyyətində əsaslı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qovuşmuşdur.

Əminəm ki, “Şərq qapısı” qəzeti Azərbaycanın azad və demokratik mətbuat sistemində layiqli yer tutaraq dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda bütün qüvvələri səfərbər etmək, hər oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaq üçün var gücünü sərf edəcəkdir.

Sizə bundan sonra da oxucu etibarına layiq olmağı arzulayır, hər birinizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları diləyirəm.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**
**Bakı şəhəri, 25 noyabr 1996-cı il.**

## Qəzetçilik tarixinin əsas sütunlarından biridir “Şərq qapısı” qəzeti



Müasir türk ədəbiyyatı və düşüncə həyatına dair əsərləri ilə tanınan, məqalələri ilə türk milli fəlsəfəmizin formalaşmasında böyük əməyi olan türkoloq Əhməd Baytursunulının gözəl bir fikri var: “Qəzet xalqın gözü, qulağı və dilidir”. Təməlində xalqımızın gözü, qulağı və dili olan “Şərq qapısı” qəzetinin, eyni zamanda mayasında millilik və Azərbaycançılıq ideologiyası var. Artıq 103 illik bir tarixi olan “Şərq qapısı” müasir dövrümüzdə bir əyalət qəzeti statusundan çıxıb yeni informasiya texnologiyaları sayəsində beynəlxalq bir nəşr missiyası yerinə yetirməkdədir.

Mən Naxçıvanda doğulmuşam. Mənim “Şərq qapısı” ilə tanışlığım artıq 30 ili ötüb. Biz on yaşlarımızda olanda məktəbimizin kitabxanasında və evlərimizdə bu qəzet ilə dostluğumuz və tanışlığımız başlayıb.

O tarixi günlərdə Ulu Öndər Heydər Əliyevin Naxçıvan gəncləri ilə görüşü olmuşdu. Bu görüşdən “Şərq qapısı” qəzeti bir reportaj hazırlamışdı. 1990-cı il avqust ayının ilk günləri idi. O çətin günlərdə qəzet xalqımızı düşdüyü çətin vəziyyətdən çıxaracaq və Azərbaycan dövlətini yoxolma bəlasından qurtaracaq liderin fikirlərinin yayılmasında da böyük önəm daşıyırdı. Bu tarixi missiyanı “Şərq qapısı” böyük çətinlik və ustalıqla yerinə yetirdi.

Azərbaycan qəzetçilik tarixinin əsas sütunlarından biridir “Şərq qapısı” qəzeti. Günümüzə qədər bunu qoruyub saxlamaq böyük əmək tələb edib. Qiymətli şəxsiyyətlərin yetişməsində “Şərq qapısı” özünün mənəvi missiyasını yerinə yetirir.

Dövrümüzün bizə bəxş etdiyi imkanlar sayəsində biz qəzetin veb-səhifəsindən nəinki Naxçıvandan, həm də ölkəmizdən xəbər tutur, eyni zamanda dünyada baş verənləri öyrənə bilirik. Hazırda “Şərq qapısı” qəzetinin çox gənc və dinamik bir komandası var. Bu komandanın, məncə, ən əhəmiyyətli özəlliyi ənənələrə sadiqlik ilə müasirliyi gözəl sintez etmələridir.

Zaman tapdıqca qəzetdə müxbirlərin hazırladığı xəbərləri və araşdırma yazılarını oxuyuram. Azərbaycan dilinin bu qədər təmiz və şəffaf qorunub saxlanması təqdirəlayiqdir. Məhz elə “Şərq qapısı”nın böyük tarixi xidmətlərindən biri də budur.

Vətənimizin ayrılmaz bir parçası olan, bizi birləşdirən “Şərq qapısı” qəzetinin kollektivini təbrik edirəm. Başda baş redaktor Sara Əzimova olmaqla qəzetin yaşamasına nəfəs verən hər kəsi təbrik edirəm.

**Orxan HƏSƏNOĞLU**
***Şimali Kipr Türk Cümhuriyyəti Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin sədri***




## Mənim təcrübə müəlimim

“Şərq qapısı” qəzeti mənim üçün həmişə əziz və doğma olub. “Nəticə çıxaracaqlarmı?” adlı ilk məqaləm qəzetin 1971-ci il 27 fevral tarixli nömrəsində dərc olunandan sonra 53 ildir ki, “Şərq qapısı” ilə əməkdaşlıq edirəm. İlk təcrübə müəllimim kimi “Şərq qapısı”na olan məhəbbətim peşə seçimimdə də mühüm rol oynayıb. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib təyinatla “Şərq qapısı” qəzetinə göndərilmiş, ilk əmək fəaliyyətinə burada başlamışam. Deyə bilərəm ki, qəzet şərəfli yol keçmiş, Azərbaycanda öz üslubu və yolu ilə seçilən mətbuat orqanı kimi böyük nüfuz qazanmışdır.

Qəzet peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etmiş, muxtar respublikanın sosial-iqtisadi tərəqqisi, vətəndaş cəmiyyətinin formalaşması, milli həmrəyliyin möhkəmlənməsi və digər sahələrdə həyata keçirilən dövlət siyasəti barədə həqiqətlərin oxucalara çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir.



“Şərq qapısı” qəzetini 103-cü ildönümü münasibətilə təbrik edir, redaksiya heyətinə, nəşrin əməkdaşlarına möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram.

**Hüseyn ƏSGƏROV**
**yazıçı-publisist**

## 103 yaşın mübarək, doğma qəzetim!

“Şərq qapısı” qəzeti ölkəmizdə öz dəsti-xəti, orijinal üslubu ilə seçilən mətbu orqan kimi muxtar respublikanın salnaməsini doğru-düzgün və obyektiv əks etdirən bir söz tribunasıdır. Bəli, bu qəzet hamımızın doğma qəzetidir. Qəzetin daimi oxucusu kimi mən iş saatıma qəzetin mütailəsi ilə başlayıram. Qəzet o vaxt oxunaqlı olur ki, ondan hər bir oxucu özünə uyğun, onu çəkən, maraqlandıran material tapsın. Şükürlər olsun ki, 103 yaşlı şərəfli bir yol gələn qəzetimiz belə oxunaqlı mətbu orqanıdır. Qəzetdə çox məhsuldar, peşəkar jurnalistlər çalışır. Demək olar ki, onları yaxından tanıyıram. Bir oxucu kimi onların yazılarını həvəslə oxuyuram.



Bu qəzet gənc jurnalistlərin yetişməsi üçün əsl yaradıcılıq ocağıdır. “Şərq qapısı”nın təcrübəli müxbirləri redaksiyada aylarla zəhmət sərf edib, gənclərə bir-bir qələm tutmağı, yazı vərdişinə yiyələnməyi öyrədirlər. Onlar bir yaradıcı adamın yetişməsi üçün lazım olan ən əsas olanları – yaradıcılıq azadlığını, sərbəstliyini, özünəinam hissini və cəmiyyət qarşısında sosial məsuliyyət mühitini bura üz tutan hər bir gənc üçün təmin edə bilib. Bu üç keyfiyyətə malik hər kəs qısa müddətdən sonra “Şərq qapısı” məktəbində yetişməyə başladığını hiss edə bilir. Yaradılmış şərait jurnalistlərin bundan sonra da yaxşı işləməsinə, üzərlərinə düşən məsuliyyətli və şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməsinə imkan verəcəkdir. Qəzetin kollektivinə bu estafeti gələcək nəsillərə çatdırmaqda uğurlar diləyirəm.

**Hörmətlə, Vidadi SÜLEYMANOV**
***Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Şərur Rayon Təşkilatının sədri***

## Naxçıvanın bir əsrlik tarixini öz arxivində qoruyan qəzet



“Şərq qapısı” qəzetinin kollektivinin hər bir üzvünü İspaniyadan salamlayıram.

103 ildir ki, qəzetin yaradıcı kollektivi jurnalistikanın yüksək amalına həmişə sədaqətlə xidmət edib, 70 illik sovetlər dönəmində milliliyimizi, tariximizi yaşatmağa çalışıb, müstəqillik dövrünün ədəbi salnaməsinə yeni parlaq səhifələr yazıb, ağıl və təmkin, səbir və dəyanət yolları ilə addımlayan bu keşməkeşli yollarda heç bir qasırğa, boran, çovğundan qorxmayıb. Yolundan, amalından, məqsədindən dönməyən bu mətbu orqan öz səhifələrində tarix yazıb. Elə bir tarix ki o tarix xalqımızın dəyanətini, mərdliyini, illərin əsarətindən azadlığa gedən yolunu, dostunun, düşməninin kim olduğunu, zəfər dastanını sətirlərdə, məqalələrdə toplayıb. Naxçıvanın bir əsrlik tarixini öz arxivində qoruya bilib. Burada Naxçıvanın inkişafı üçün imzalanan sərəncamlar, fərmanlar, qəbul edilən qərarlar, tarixin həmin dövrünün salnaməsinə çevrilən neçə-neçə məqalələr dərc olunub. Bütün bunlar “Şərq qapısı” qəzetinin cəmiyyətin bu günü və gələcəyi üçün göstərdiyi əhəmiyyətli xidmətlərdir. Bu müqəddəs yolda hər birinizə uğurlar arzu edir, müvəffəqiyyətlərinizin davamını diləyirəm.

**Cəmilə FƏRƏCOVA**
***İspaniya Krallığı, Qalisiya əyaləti, Santiaqo de Kompostela şəhəri***

## Mənim üçün əziz mətbuat orqanı

Bu günlərdə “Şərq qapısı”nın arxivində araşdırma apararkən diqqətimi bir neçə səhifədəki rəssamlıq işləri çəkdi. Maraqlanıb həmin rəsmlərin müəllifini tanımaq qərarına gəldim. Öyrəndim ki, o, “Şərq qapısı” qəzetində 1970-ci illərdə rəssam işləmiş 87 yaşlı Qəzənfər Qənbərovdur. Məlumat üçün bildirim ki, “Şərq qapısı” qəzeti fəaliyyət göstərdiyi 103 il ərzində neçə-neçə insanın müxtəlif sahələr üzrə mütəxəssis, bacarıqlı peşə sahibi kimi yetişməsində mühüm rol oynayıb. Burada güclü jurnalistlər, publisistlər, şair və yazıçılarla yanaşı, rəssamlar, qəzet operatorları və tərtibatçıları da yetişib. Qəzənfər Qənbərov da qəzetdə yetişmiş bacarıqlı rəssam kimi tanınıb. Onunla Naxçıvan şəhərində fəaliyyət göstərdiyi emalatxanasında görüşmək bizə bir anlıq nostalji hisslər bəxş etdi. Onu da deyim ki, Qəzənfər müəllimlə görüşə gedib onu yad etməyimiz onun üçün də gözlənilməz oldu. Müsahibimiz deyir ki, ştatdankənar işçi kimi fəaliyyət göstərsəm də, qəzetlə əməkdaşlıq etməyim yaradıcılığımda önəmli rol oynayıb. Buna görə qəzetə minnətdaram.

Qəzənfər müəllim öz bacarıq və istedadını rəssamlığın rəngkarlıq, qrafika, dekorativ-tətbiqi incəsənətin aplikasiya, ağac üzərində yandırma sahələrində göstərə bilib. Onun siyasi xadimlərimizin, ədiblərimizin, şəhidlərimizin portretlərini yaratması həm də bu janra marağının ifadəsidir. Onu da qeyd edək ki, müsahibimiz həm də gözəl etüdlər müəllifidir.

Öyrəndik ki, onun fəaliyyəti qəzetlə məhdudlaşmayıb. Yaratdığı rəsm əsərləri muxtar respublikanın hüdudlarını aşıb. Bunun ifadəsidir ki, Qəzənfər Qənbərovun paytaxt Bakı şəhərində sərgisi açılıb.

“Şərq qapısı” qəzeti ilə əməkdaşlıq etdiyi günləri minnətdarlıqla xatırladan Qəzənfər Qənbərov dedi: “Həyatda hər bir insanın karyera qazanmasında, gələcək həyat yollarında uğurlu addımlar atmasında mütləq bir dəstək olmalıdır. Bu sahədə mənə dəstək doğma qəzetimiz olub. Ona görə də “Şərq qapısı” bu gün də mənim üçün əziz mətbuat orqanıdır. Qəzetə və onun əməkdaşlarına gələcək fəaliyyətlərində uğurlar arzulayıram”.

**Aidə İBRAHİMOVA**



## 103 yaşlı mətbu orqanın gənc jurnalistləri

Gənclər cəmiyyətin parlaq gələcəyidir. Muxtar respublikamızda da onların öz bilik və bacarığı ilə cəmiyyətdə layiqli yer tutmalarının təmin edilməsi üçün lazımi şərait yaradılıb. Yaxın günlərdə 103 yaşını qeyd edən, muxtar respublikamızın əsas mətbuat orqanı olan “Şərq qapısı” qəzeti də gənclərdən qayğısını əsirgəməyib. Bu illər ərzində neçə-neçə insanın yoluna işıq tutan bu mətbu orqanının onların inkişafındakı rolu inkaredilməzdir. Bu reallığın ən yaxın şahidlərindən biri də mənəm... Əminliklə demək olar ki, 103 yaşlı bu qocaman söz çinarı biz gənc jurnalistlər üçün bir məktəbdir. Hazırda burada gənclərimiz həm işləyir, həm də jurnalistikanın bir-birindən zəngin, maraqlı tərəflərini öyrənirlər.



“Şərq qapısı” qəzetinin ən gənc jurnalistlərindən biri də həmkarım Rafiq Təhməzdir: “Mətbuat elə sahədir ki, haqqında nə qədər yazsam da, inanmıram ki, fikirlərimi yekunlaşdıra biləm. Bir əsrdən çox müddətdə baş verənləri müxtəlif zamanlarda, ərəb, kiril və latın əlifbası ilə bizə çatdıran bir mətbuat... Şərq mətbuatının açıq qapısı... “Şərq qapısı” qəzetdən daha çox bir məktəb kimi Xalq yazıçısı Mirzə İbrahimov, Əli Vəliyev və başqa şəxsiyyətlərin yetişdirdiyi jurnalistlərin yaratdığı məktəbin imzası altında uzun bir tarixi geridə qoymuşdur. Hazırda isə bu qəzetin ən gənc jurnalisti kimi doğma qəzetlə əməkdaşlıq edirəm. Akademik İsa Həbibbəylinin belə bir sözü var: “Yazmasam xəstələnər, oxumasam ölərəm”. “Şərq qapısı” 1921-ci ildən bu yana hər il yeni bir daş daha qoyaraq mətbuat qalasını inşa etmək yolunda irəliləyir... Mən də bu qəzetin bir ilə yaxındır ki, əməkdaşıyam. Bir əsrdən çox yaşı olan mətbuatın tarixində az bir zamandır çalışsam da, fəxr edirəm ki, “Şərq qapısı” adlanan mətbuat qalasının 103-cü yaşına şahidlik edirəm...”

Gənc jurnalist Araz Quliyev isə deyir: “Şərq qapısı” qəzeti ilə tanışlığım mənim üçün böyük məsuliyyətdir. Naxçıvanın hər guşəsini əks etdirən, illərin salnaməsi olan bir nəşrdə yer almaq tələbə bir jurnalist üçün gələcək həyatımda böyük bir təcrübə meydanıdır.

“Şərq qapısı” qəzeti Naxçıvanın mədəniyyətini, tarixini və sosial həyatını özündə əks etdirən bir nəşr olaraq regionun ən mötəbər və etibarlı media orqanıdır. Hətta ölkəmizin sayılan mətbu orqanı olan “Şərq qapısı” hər səhifəsində özünəməxsus bir rəng, hər cümləsində dərindən düşünülmüş bir məsuliyyət daşıyır. O, bir informasiya vasitəsi olmaqla qalmır, həm də əsl jurnalistlik sənətini gənclərə öyrədir. Bu qəzetdə çalışmaq ölkəmizin tarixi irsinə xidmət etmək üçün əvəzolunmaz bir fürsətdir.



Həqiqətən, jurnalist olmaq hər gün yeni bir dünyanı, fərqli insanları tanımaq deməkdir. Lakin bu, sadəcə, gördüyünü yazmaq deyil. Hər yazıda vicdanın, ədalətin, obyektivliyin ön planda olmalıdır. İlk dəfə redaksiyaya daxil olduqda məni qarşılayan bu mənəvi məsuliyyət özünü bir az həyəcanla göstərdi. Müxtəlif sahələrdən xəbər hazırlamaq, məqalələr yazmaq və oxuculara Naxçıvanın nəbzini çatdırmaq... Bunların hər biri mənim üçün həm çətin, həm də xüsusi bir vəzifə borcudur”.

Bu gün gənc qələm sahibləri Ümummilli Lider Heydər Əliyevin qəzetimiz haqqında söylədiyi ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən, burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm... O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”*** fikrini özlərinə rəhbər tutublar. Çalışdığımız 103 yaşlı mətbuat orqanında gənc jurnalistlərdən yalnız əməli fəaliyyətləri, operativ, iti və kəsərli qələmləri ilə onlara göstərilən inamı doğrultmaq tələb olunur.

**Bülbül QULİYEVA**



# COP29: İqlim dəyişikliyinə qarşı mübarizədə Azərbaycanın siyasi mövqeyi və Naxçıvanın strateji rolu



*İqlim dəyişikliyi, XXI əsrin ən böyük qlobal problemlərindən biri olaraq dünya ölkələrinin qarşısında ciddi çağırışlar təqdim edir. Bu kontekstdə, COP29-un Azərbaycanın ev sahibliyində keçirilməsi ölkəmiz üçün həm simvolik, həm də strateji əhəmiyyət daşıyır. Azərbaycanın coğrafi mövqeyi, zəngin təbii resursları və regional gücü, bu konfransın uğurlu keçirilməsində mühüm rol oynayır və ölkəmizin qlobal iqlim siyasətində lider mövqeyini gücləndirir.*

**Əli ABBASOV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

### *Azərbaycanın COP29-a ev sahibliyi: strateji əhəmiyyət və milli maraqlar*

COP29-un Azərbaycanda keçirilməsi, ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə qlobal arenada daha fəal iştirakını təmin edir. Prezident cənab İlham Əliyevin konfrans zamanı etdiyi çıxışda vurğuladığı kimi, ***"Azərbaycan qlobal ekoloji problemlərin həllində öz üzərinə düşən məsuliyyəti dərk edir və beynəlxalq əməkdaşlığa böyük önəm verir".*** Bu çıxış ölkəmizin yalnız milli maraqlarını qorumaqla qalmayıb, həm də qlobal səviyyədə davamlı inkişaf hədəflərinə çatmaq üçün bir sıra mühüm vəzifələri yerinə yetirməyə hazır olduğunu göstərir. Azərbaycanın ev sahibliyi, regionda iqlim dəyişikliyi ilə mübarizədə koordinator rolunu gücləndirir və qonşu ölkələr ilə əməkdaşlığın genişləndirilməsinə zəmin yaradır. Bu həm regionun ekoloji təhlükəsizliyini təmin etmək, həm də bərpa olunan enerji sahəsində ortaq layihələrin həyata keçirilməsi üçün imkanlar açır.

### *Azərbaycan siyasətinin dəstəklənməsi və gücləndirilməsinin əhəmiyyəti*

COP29 konfransında iştirak edən ölkələrin nümayəndələrinin birgə səyləri qlobal iqlim problemlərinin həllində mühüm rol oynayır. Beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi, milli səviyyədə həyata keçirilən tədbirlərin effektivliyini artırır. Bu baxımdan Azərbaycanın fəal iştirakı və təşəbbüsləri ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir və qlobal səylərə mühüm töhfə verir.

Ölkə başçısının çıxışında ifadə etdiyi kimi: ***"Qarşılıqlı etimad və əməkdaşlıq əsasında qurulan münasibətlər qlobal problemlərin həllində əsas açardır".*** Cənab Prezident, həmçinin vurğuladı: ***"Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə göstərdiyi səylərin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi qlobal hədəflərə çatmaq üçün vacibdir".*** Bu ifadələr Azərbaycanın qlobal ekoloji siyasətdəki yerini və əhəmiyyətini göstərir.

### *COP29-da iştirak edən ölkələrin nümayəndələri və əsas görüşlər*

COP29 konfransında dünyanın müxtəlif bölgələrindən gələn ölkələrin nümayəndələri iqlim dəyişikliyi ilə mübarizədə öz milli strategiyalarını təqdim edirlər. ABŞ, Çin, Avropa İttifaqı, Hindistan, Rusiya və digər böyük istixana qazı emissiya edən ölkələrin nümayəndələri yenilənə bilən enerji mənbələrinə keçid, enerji səmərəliliyinin artırılması, meşələrin qorunması və genişləndirilməsi kimi əsas mövzular üzərində fikir mübadiləsi apararlar. Bu kontekstdə, xüsusilə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin ortaq məsuliyyət prinsipi əsasında əməkdaşlıq etməsi qlobal istiləşmənin qarşısının alınmasında mühüm rol oynayır. Prezident cənab İlham Əliyev Azərbaycanın bu əməkdaşlıqda nə dərəcədə fəal iştirak etdiyini vurğulayaraq ***"Biz, regional və qlobal səviyyədə ekoloji problemlərin həllində liderlik etmək niyyətindəyik"*** ifadəsini diqqətə çatdırdı.

### *Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə fəaliyyəti və hədəfləri*

Prezident cənab İlham Əliyevin bildirdiyi kimi, ***"Ölkəmiz istixana qazı emissiyalarının 2050-ci ilə qədər 40 faiz azaldılmasını hədəfləyir".*** Bu məqsəd üçün Azərbaycan enerji sektorunda struktur dəyişikliklər həyata keçirərək bərpa olunan enerji mənbələrinin payını artırmaq və enerji səmərəliliyini yüksəltmək istiqamətində ciddi addımlar atır. Hazırda Azərbaycanın elektrik enerjisi istehsalının, təxminən, 18 faizi bərpa olunan enerji mənbələrindən əldə edilir və bu rəqəmin 2030-cu ilə qədər 30 faizə çatdırılması planlaşdırılır.

### *Naxçıvan Muxtar Respublikasının iqlim dəyişikliyinə töhfəsi*

Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədəki milli strategiyasının fəal iştirakçısıdır. Coğrafi mövqeyimiz və təbii resurslarımız sayəsində bərpa olunan enerji potensialımız yüksəkdir. Günəş və külək enerjisindən istifadənin genişləndirilməsi ilə həm enerji təhlükəsizliyimizi təmin edir, həm də karbon emissiyalarının azalmasına töhfə veririk.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində, Naxçıvan Muxtar Respublikasında təkcə noyabr ayı ərzində "Naxçıvan Qaziləri" İctimai Birliyinin təşəbbüsü ilə 0,5 hektar ərazidə 500-ə yaxın ağacın əkilməsi həyata keçirilərək Şəhidlər bağının yaradılması həm şəhidlərimizin əziz xatirəsini əbədiləşdirməyə, həm də ətraf mühitin qorunmasına xidmət edir. Bundan əlavə, Şərur Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Şərur Şəhidlər xiyabanında 103 çinar ağacı əkilmişdir. Hər bir ağac QR kodu ilə təchiz olunmuşdur ki, bu da hər şəhidin həyat yolunu əks etdirir. Bu innovativ yanaşma gənc nəsillərə şəhidlərimizin qəhrəmanlıq tarixini tanıtmaqla yanaşı, ekoloji maarifləndirməni də təşviq edir.

### *Təhsil islahatları və gənclərin ekoloji savadlılığının artırılması*

COP29 konfransında təhsil islahatları və iqlim dəyişikliyi üzrə savadlılığın artırılması əsas mövzular arasındadır. İqlim dəyişikliyi ilə mübarizədə gənc nəslin rolu böyükdür və bu məqsədlə təhsil proqramlarına iqlim dəyişikliyi və ətraf mühit mövzularının daxil edilməsi, ekoloji maarifləndirmə kampaniyalarının keçirilməsi və gənclərin ekoloji layihələrdə fəal iştirakı təşviq olunur. Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə əhəmiyyətli addımlar atılır. Ali, orta ixtisas və ümumi təhsil müəssisələrində iqlim dəyişikliyi mövzuları tədris olunur, təcrübə laboratoriyaları yaradılır, ekoloji tədbirlər və aksiyalar keçirilir. Bu tədbirlər gənclərin ekoloji problemlərə həssaslığını artırır və onların bu sahədə bilik və bacarıqlarını inkişaf etdirir.

### *Naxçıvanın strateji rolu və regional əməkdaşlıq*

Muxtar respublikamız da bu siyasətin həyata keçirilməsində fəal rol oynayır. Regional layihələr, transsərhəd əməkdaşlıq və ekoloji sahədə beynəlxalq təşkilatlarla iş birliyi hər birimiz üçün prioritetdir. Bu istiqamətdə atılan addımlar həm iqtisadi inkişafımıza, həm də ekoloji problemlərin həllinə xidmət edir.

Araz çayı hövzəsində ekoloji monitorinq proqramları vasitəsilə suyun keyfiyyət və bioloji müxtəliflik izlənilir, çirklənmənin qarşısının alınması üçün tədbirlər görülür. Transsərhəd su resurslarının idarə olunması, bioloji müxtəlifliyin qorunması və ekosistemlərin davamlılığının təmin edilməsi sahəsində birgə layihələr həyata keçirilir.

### *Nəticə və gələcək hədəflər*

Nəticə etibarilə, COP29 konfransı iqlim dəyişikliyi ilə mübarizədə mühüm bir platformadır. Dünya ölkələrinin nümayəndələrinin fəal iştirakı və konstruktiv dialoqu qlobal hədəflərə çatmaq üçün vacibdir. Azərbaycanın bu prosesdə oynadığı rolun dəstəklənməsi və gücləndirilməsi, yalnız milli maraqlarımızın təmin olunmasına deyil, qlobal səviyyədə davamlı inkişafın təmin edilməsinə də xidmət edir.

İnanırıq ki, birgə səylər və kollektiv məsuliyyət sayəsində iqlim dəyişikliyinin mənfi təsirlərini azaltmaq və gələcək nəsillərə daha yaşıl və sağlam bir dünya miras qoymaq mümkün olacaq. Naxçıvan Muxtar Respublikası da bu prosesin fəal iştirakçısıdır və naxçıvanlılar üzərlərinə düşən vəzifələri yerinə yetirməyə sadiqdirlər.

### *Ətraf mühitin qorunmasında hamımızın rolu və gələcək nəsillərə cavabdehlik*

Ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə, yalnız dövlət orqanlarının deyil, cəmiyyətin bütün təbəqələrinin, o cümlədən gənc nəslin iştirakı ilə mümkün olacaqdır. Hər bir vətəndaşın ekoloji məsuliyyəti və fəal mövqeyi qlobal səylərin uğurla nəticələnməsinə töhfə verəcəkdir. Bu məqsədlə təhsil və maarifləndirmə sahəsində görülən işlərin əhəmiyyəti danılmazdır.

Gələcək nəsillərə təmiz və sağlam bir mühit miras qoymaq, bizim ən böyük vəzifəmizdir. Bunun üçün elmi əsaslara söykənən siyasətlər, innovativ texnologiyaların tətbiqi və beynəlxalq əməkdaşlıq vacibdir.

Sonda iqlim dəyişikliyi ilə mübarizə qlobal bir çağırışdır və bu çağırışa cavab vermək üçün hər birimizin üzərinə böyük məsuliyyət düşür. Biz bu məsuliyyəti dərk edir və qlobal səylərə fəal töhfə verməyə davam edirik. Birgə səylərimizlə daha yaşıl, daha təmiz və daha ədalətli bir dünyanın qurulacağına inanırıq.

# Yeni Azərbaycan Partiyasının yaradılmasından 32 il ötür



***Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin elə bir dövründə yaradıldı ki, ölkə çox ağır bir dövrdən keçirdi. Ölkədə dərin böhran hökm sürür, siyasi hərc-mərclik baş alıb gedir, ölkə xaosa sürüklənirdi. Azərbaycan öz müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə idi.***

**Əjdər ƏLİYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

Tarixin belə mürəkkəb bir dövründə, 1992-ci ilin oktyabr ayında 91 nəfər Azərbaycan ziyalısı Ümummilli Lider Heydər Əliyevə müraciət göndərərək Yeni Azərbaycan Partiyasının yaradılması və ona rəhbərlik edilməsini təklif etdilər. Sonradan tarixə "91-lər"in müraciəti kimi daxil olan sənəddə qeyd olunurdu: *"Hörmətli HEYDƏR BƏY! İndiki vəziyyətdə bu çətin məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın, demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz..."*

Ulu Öndər Heydər Əliyev Azərbaycan ziyalılarına göndərdiyi cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və partiyaya rəhbərlik etməyə razılıq verdi.

1992-ci il noyabr ayının 21-də Naxçıvanda Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Konfransda partiyanın yaradılması barədə qərar qəbul edildi və Heydər Əliyev partiyanın sədri seçildi. Bununla da müstəqil Azərbaycanın siyasi tarixində silinməz izlər qoyan fenomen bir partiyanın əsası qoyuldu.

Partiyanın yaranmasından 6 ay sonra partiyanın sədri Heydər Əliyevin xalqın təkidi ilə siyasi hakimiyyətə qayıtması Azərbaycan tarixinin yeni mərhələsinin başlanğıcı oldu.

Bu gün Yeni Azərbaycan Partiyası 32 illik şərəfli bir yol keçərək güclü siyasi təşkilata çevrilmişdir. Partiyanın yaradıldığı ilk gündən bəri əsas məqsədi müstəqilliyimizin möhkəmləndirilməsi və müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutması, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, sabit və sosialyönümlü iqtisadiyyatın yaradılması, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən asılı olmayaraq, vətəndaşların hüquq və azadlıqlarının hərtərəfli və etibarlı müdafiəsinin təmin edilməsi, qanunçuluq, ictimai həmrəylik və firavan həyat üzərində qurulmuş vətəndaş cəmiyyətinin formalaşdırılması, insanların müstəqil dövlətçilik ideyası və Azərbaycançılıq məfkurəsi ətrafında birləşdirilməsi olmuşdur.

Üzərinə götürdüyü tarixi missiyanı uğurla yerinə yetirən partiya müxtəlif dövrlərdə keçirilən seçkilərin mütləq qalibi oldu. Çünki Azərbaycan xalqı onları işığlı gələcəyə aparacaq siyasi qüvvənin Yeni Azərbaycan Partiyası olduğunu çox yaxşı bilirdi. Xalqın sevgisinin digər səbəbi isə lider faktoru idi. Yeni Azərbaycan Partiyasına XX əsrin ən böyük siyasətçilərindən birinin – Ulu Öndər Heydər Əliyev kimi dahi bir şəxsiyyətin rəhbərlik etməsi xalqın partiyaya rəğbətinin ən böyük səbəblərindən biri idi.

Yeni Azərbaycan Partiyasının fəaliyyətini, onun ölkəmizin siyasi həyatındakı mühüm rolunu, üzərinə götürdüyü tarixi missiyanı Ümummilli Lider Heydər Əliyev belə ifadə edirdi: ***"Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır".***

Bəli, Yeni Azərbaycan Partiyası dünənimizin xilaskarı, bu günümüzün təminatı, gələcəyimizin isə qarantıdır.

Bu gün isə Ümummilli Liderin siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası siyasi arenada böyük gücə çevrilibdir. Partiyanın 730 mindən çox üzvü var. Yeni Azərbaycan Partiyasının üzvlərinin 40 faizi gənclərdir. O gənclər ki Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşərək cəbhədə vuruşaraq torpaqlarımızı işğaldan azad etdilər, Azərbaycanın ərazi bütövlüyünü təmin etdilər, bizə qələbə sevincini yaşatdılar.

Vətən müharibəsində əldə etdiyimiz qələbədən sonra yaranmış yeni reallıqların işığında ölkəmiz Yeni Azərbaycan Partiyasının sədri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla irəliləyəcəkdir.

# "Şərq qapısı" 103 yaşını qeyd edir




(əvvəli 1-ci səhifədə)

***"Mən jurnalistlərə, mətbuat orqanlarına böyük hörmətlə yanaşıram. Sizin əməyinizi çox ağır, mürəkkəb əmək hesab edirəm. Özünü bu peşəyə həsr edənlər əsl hünər göstərirlər"***, – deyən Ümummilli Liderimiz hələ o dövrdə Azərbaycanın ictimai fikir tarixində mühüm rolu olan mətbuatın daha sürətli inkişafına, söz, fikir azadlığına şərait yaradıb, respublika mətbuatında öz dəst-xəti olan qələm sahibləri yüksək dövlət mükafatlarına layiq görülüblər.

Bir qədər geriyə qayıdaraq etiraf edək ki, sovet hakimiyyəti illərində dövlətin ideoloji tələbləri söz azadlığına, mətbuatın demokratik prinsiplərlə inkişafına imkan vermirdi. Ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycan mətbuatının 130 illik yubiley mərasimində dediyi kimi: ***"O dövrün ideoloji çərçivələri icazə vermirdi ki, Sovet Azərbaycanında söz azadlığı tam bərqərar olsun. İdeoloji çərçivələr imkan vermirdi ki, mətbuat hərtərəfli inkişaf etsin"***.

Bütün bu maneələri aradan qaldırmağı 1969-cu ildə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev özünün prioritet vəzifəsinə çevirdi.

Azad mətbuatın, demokratik cəmiyyətin ayrılmaz tərkib hissəsi olan, mütərəqqi ideaların carçısına çevrilən, xalqın ülvi arzularının reallaşmasına öz töhfəsini verən söz tribunamız müstəqillik illərində yenə də məhz dahi şəxsiyyət Heydər Əliyevin apardığı uzaqgörən siyasətin, həyata keçirilən məqsədyönlü tədbirlərin hesabına özünün yeni inkişaf mərhələsinə qədəm qoydu.

Ulu Öndərin 1998-ci il avqust ayının 6-da imzaladığı "Söz, fikir, məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı mətbuat işçilərinin böyük sevincinə səbəb oldu. Bu sənədlə Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarənin fəaliyyəti dayandırıldı.

Ulu Öndərin bu istiqamətdə gördüyü ən mühüm işlərdən biri də 2000-ci il mart ayının 27-də imzaladığı Fərman idi. "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" adlı bu tarixi sənəd ölkəmizdə mətbuata dövlət qayğısının daha bir təzahürü kimi dəyərləndirildi.

Ulu Öndər deyirdi: ***"Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfələrini vermişdir"***. Təbii ki, bu töhfələr mətbuatımıza Ulu Öndərin böyük qayğısından qaynaqlanırdı. Belə qayğının davamı kimi Ümummilli Liderin 2001-ci il dekabr ayının 27-də imzaladığı "Kütləvi İnformasiya Vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı da mühüm əhəmiyyət daşıyan sənəd kimi dəyərləndirilməlidir.

2001-ci ildə kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşən Ulu Öndər Heydər Əliyev demişdir: ***"Bilin, mən jurnalistləri həmişə sevmişəm. Mən bir dəfə söylədim ki, keçmişdə, sovet hakimiyyəti dövründə, Sovet İttifaqı Kommunist Partiyasının liderləri içərisində başqalarına nisbətən mətbuatla ən yaxın olan adam mən olmuşam. Ən dost olan adam mən olmuşam. Bu mənim xarakterimdədir, xasiyyətimdədir. Mən həmişə mətbuatla maraqlanmışam, qəzet-jurnalları oxumuşam, radio-televiziyada verilən məlumatlara həmişə diqqətlə yanaşmışam. Ona görə də jurnalistika sənəti mənə çox yaxın olubdur"***.

Bütün bunlara rəğmən onu da vurğulamağı vacib sayırıq ki, Ümummilli Liderin kütləvi informasiya vasitələrinin inkişafına, jurnalist əməyinin qiymətləndirilməsinə göstərdiyi qayğının bəhrələrini "Şərq qapısı" qəzetinin timsalında aydın görmək olar. Köklü mətbuat ənənələri olan qəzetin fəaliyyətini Ulu Öndər yüksək qiymətləndirərək deyirdi: ***"Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən, burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm... O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb"***.

Yeri gəlmişkən, bir faktı diqqətinizə çatdırmaq istərdim. Azərbaycan Milli Mətbuatının 135 illik yubileyi ərəfəsində, 13 iyul 2010-cu il tarixli nömrəsində "Ziyalı tribunası" rubrikasında dərc olunmuş "Mətbuat cəmiyyətin güzgüsüdür. Onun nüfuzunu yüksəldən başlıca amil dövlətçilik dəyərlərinin formalaşması prosesində oynadığı roldur" sərlövhəli müsahibəmdə Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, 1991-2000-ci illərdə "Şərq qapısı" qəzetinə redaktorluq etmiş mərhum Səxavət Kəngərli mətbuatda işlədiyi dövrlərdə Ümummilli Lider Heydər Əliyevlə görüşlərini xatırlayaraq dedi: *"Ümummilli Liderimiz mətbuata qarşı çox həssas və qayğıkeş insan idi. Çünki mətbuatın cəmiyyət həyatındakı rolunu yaxşı bilirdi. O, daim qəzetin fəaliyyəti ilə maraqlanır, muxtar respublikanın maddi vəziyyətinin son dərəcə ağır olmasına baxmayaraq, qəzetin nəşrinin davam etdirilməsinə hər cür maddi köməklik göstərir, onun keyfiyyətini yaxşılaşdırmaq, ideya-siyasi cəhətdən düzgün istiqamətləndirmək üçün çox qiymətli tövsiyələr verirdi"*.

Səxavət müəllim onu da deyirdi ki, qəzetin hər bir nömrəsi ilə yaxından maraqlanan Ulu Öndər vəsait çatışmadığı üçün "Şərq qapısı" qəzetinin bülleten şəklində nəşr edilərək paytaxt Bakıya göndərilməsini təmin etmişdi. Məqsəd o idi ki, Bakıda və ölkənin digər bölgələrində yaşayanlar muxtar respublikada gedən ictimai-siyasi proseslərdən xəbər tuta bilsinlər.

Həyatımızın bütün sahələri ilə yanaşı, mətbuata da böyük qayğı göstərən Ulu Öndərin layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin ötən dövr ərzində bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü tədbirlər hər bir mətbuat işçisinin hərtərəfli fəaliyyətinə böyük imkanlar yaradıb.

Şərəfli bir yol keçmiş, bölgənin ictimai-siyasi, mədəni, iqtisadi həyatında mühüm rol oynamış "Şərq qapısı" qəzeti də belə qayğılardan kənarda qalmayıb. Belə ki, son illərdə əməkdaşların əməkhaqqı bir neçə dəfə artırılıb, 3 şöbə yaradılıb, qəzet müasir bina və texnoloji avadanlıqlarla təmin edilib. 2021-ci ildə qəzetin 100 illik yubileyi keçirilib. Yubiley tədbirində qəzetdə səmərəli fəaliyyət göstərən əməkdaşlar mükafatlandırılıb.

Bu gün muxtar respublika ölkə başçısı cənab İlham Əliyevin hərtərəfli qayğısı ilə böyük quruculuq yolundadır. Regionumuzun hansı yaşayış məntəqəsinə, ucqar dağ və sərhəd kəndinə üz tutsaq yeniləşmə proseslərinin ərməğanlarını görə bilərik. Muxtar respublikada gedən prosesləri operativ şəkildə işıqlandırmaq üçün qəzetin yaradıcı heyəti səy və bacarığını əsirgəmirlər.

Bu gün bir elmlər namizədi və dosentin, bir Əməkdar jurnalistin, üç "Tərəqqi" medallı əməkdaşın fəaliyyət göstərdiyi qəzetdə çalışanların, demək olar ki, böyük əksəriyyəti gənclərdir. Ötən ilin dekabr ayında qəzet rəhbərliyinə gənclər təyin edilib. Qəzetin ştat cədvəlində olan üç şöbə müdiri vəzifəsi də gənclərə tapşırılıb.

"Şərq qapısı"nın kollektivi öz fəaliyyətlərində ölkə başçısı cənab İlham Əliyevin bu qədim yurd yerinə qayğısının ifadəsi olan belə tədbirlərə operativ münasibət göstərir. Respublika Prezidentinin xarici ölkələrə səfərləri, bu səfərlərdəki görüşləri, gəlinən nəticələr, həmin nəticələrin Naxçıvana da verəcəyi töhfələrlə bağlı analitik yazıların hazırlanaraq oxuculara təqdim edilməsini qəzet qarşıya qoyulmuş vəzifələrin başlıcası sayır.

Ulu Öndərin: ***"Jurnalistika böyük zəhmət, xüsusi səy, professional yanaşma, hadisələri obyektiv dəyərləndirmək və prosesləri düzgün analiz etmək bacarığı tələb edən sənətdir"*** müdrik kəlamını əsas götürən qəzet əməkdaşları öz fəaliyyətlərində bu cəhətlərə diqqət yetirməyə səy göstərirlər.

Bir haşiyə çıxaraq deyim ki, əməkdaşlarımızın fəaliyyəti dövlətimiz tərəfindən həmişə yüksək dəyərləndirilib və bu proses indi də davam edir. Bunu mən 23 il "Şərq qapısı"nda çalışan biri kimi öz timsalımda görürəm. Evlə təmin olunmuşam, "Tərəqqi" medalına, "Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülmüşəm. Bütün bunları Naxçıvanda "Şərq qapısı"nın və ümumilikdə, mətbuatın inkişafına göstərilən qayğı hesab edirəm.

Muxtariyyətimizin 100 illik yubileyini qeyd etdiyimiz bir dövrdə isə redaksiyamızın aldığı şad bir xəbər isə belə qayğının davamlı olduğunu göstərdi. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 1 may tarixdə imzaladığı "Media haqqında" Azərbaycan Respublikası Qanununun 59.2-ci maddəsinə müvafiq dəyişiklik edilməklə Azərbaycan Respublikasında çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının siyahısına Naxçıvan Muxtar Respublikasının Ali Məclisi də əlavə olunmaqla "Şərq qapısı" qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsi və qəzetin fəaliyyətinin təmin olunmasının hüquqi əsası yaradılıb. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin "Şərq qapısı" qəzeti redaksiyasının Nizamnaməsində dəyişiklik edilməsi haqqında" 2024-cü il 10 iyul tarixli Fərmanına uyğun olaraq yeni ştat cədvəli hazırlanıb. Əməkdaşların əməkhaqları xeyli artırılıb. Bu, muxtar respublikanın inkişafını daim diqqətdə saxlayan cənab İlham Əliyevin "Şərq qapısı" qəzetinə böyük qayğısı olmaqla bizim məsuliyyət hissimizi daha da artırıb. "Şərq qapısı" qəzeti bundan sonrakı fəaliyyətində də qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə çalışacaq. 103 yaşın mübarək, doğma "Şərq qapısı"!

**Muxtar MƏMMƏDOV**





# 100 ilin qəhrəmanları

***“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Naxçıvan şəhərindən olan şəhidimiz Vaqif Rəcəbovun anası Məryəm Rəcəbovanın, Naxçıvan şəhərindən olan şəhidimiz Nihat Seyidovun anası İlhamə Seyidovanın və Naxçıvan şəhərindən olan şəhidimiz Ələsgər Əsgərovun anası Tavat Əsgərovanın övladları haqqında xatirələri yer alıb.***

## Vaqif Yaqub oğlu Rəcəbov

*(23.02.1982-20.09.2023)*

## Ömrünü Vətənin azadlığı naminə fəda etdi





Vaqif ailənin ikinci övladı idi. Zəhmət çəkməkdən qorxmazdı, halal çörək qazanmağı çox sevərdi. Müsbət xasiyyətləri ilə ətrafındakıların sevimlisinə çevrilmişdi. Məsələn, o, heç zaman yalan danışmazdı. Yalanı sevməzdi. Bununla yanaşı, Vaqif dostcanlı, ədalətli və mehriban idi. Uşaqlıqdan çox dəcəl, şıltaq biri olsa da, ata-anasını sevən, sayan övlad idi. Pilot olmaq istəyirdi. Lakin yaşa dolduqca, böyüdükcə bu ülvi istəyi hərbçi olmaq arzusu ilə əvəzləndi. 7-ci sinifdə oxuyarkən qərar verdi ki, gələcək karyerasını hərbi sahədə sınayacaq, hərbçi olacaq. Naxçıvanda hərbi məktəbi oxuyub bitirdi. Hərbçi kimi ilk əmək fəaliyyətinə Naxçıvanda başladı. Daha sonra Gəncə şəhərindəki “N” hərbi hissədə xidmətini davam etdirdi. İşlədiyi dövrdə öz davranışı ilə kollektivin hörmətini qazanmışdı. Yoldaşları tərəfindən sevilirdi, sayılırdı. Onun da dərdi digər vətənpərvər övladlarımız kimi Qarabağ dərdi idi. Qarabağın azad edilməsini, xüsusən də Xocalı şəhərinin düşmən tapdağından xilas olmasını çox istəyirdi. 44 günlük Vətən müharibəsindəki Qələbəmizdən sonra qardaşı və mən Vaqifə zəng vurduq. Qələbə qazanmağımız münasibətilə ona gözaydınlığı verdik. Dedim ki, oğul, gözümüz aydın olsun, Qarabağımız azaddır. Ancaq Vaqifin danışığından hiss etdim ki, onun dərdi, kədəri hələ bitməyib, arzusu, muradı hasil olmayıb. Dedi ki, ay ana, ay qardaş, hələ Xocalıda, Xankəndidə düşmənlərimiz yaşayır. Bayrağımızı Xocalıya, Xankəndiyə sancmayınca mənə gözaydınlığı verməyin. Sonuncu dəfə qardaşı ilə danışıb. Vaqifin şəhadət xəbərini də qardaşına veriblər. O acı xəbəri oğlumun döyüş yoldaşı çatdırıb. Sentyabr ayının 20-si qardaşına zəng vururlar. Bildirirlər ki, başın sağ olsun, qardaşın qəhrəmancasına şəhid oldu. Xəbəri alanda qardaşı inanmayıb. Ancaq rəsmi məlumat gəldikdən sonra əmin olub ki, Vaqif döyüşlərdə yaralanıb, ancaq qəlpə yarası almağına baxmayaraq döyüşüb, düşməni yaxına buraxmayıb. Silah-sursatı tükənəndə düşmən ona yaxınlaşa bilib. Döyüş yoldaşlarının dediyinə görə, mənfur düşmən onu başından vurub.



Bu gün bütün şəhid ailələri kimi biz də dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuşuq. Sağ olsun, dövlətimiz bizi heç zaman unutmur. Minnətdarlıq hissi ilə deyirəm ki, xalqımız ən ağır günümüzdə bizim yanımızda oldu. Şəhid ailələrindən dəstəyini əsirgəmədi. Bir sözlə, bu çətin günlərin öhdəsindən dövlətimizin və xalqımızın köməyi ilə gələ bildik. Bu gün Vaqifdən geriyə onun övladları qalıbdır. Onlar bizə, Vətənə, xalqımıza əmanətdir. İnanıram ki, nəvələrim də atalarının adına layiq övlad olacaqlar. Vətənlərini, millətlərini sevəcəklər. Şəhid övladı olmağın qüruru ilə böyüyüb, boya-başa çatacaqlar. Allah şəhidlərimizə rəhmət eləsin. Təki Vətən sağ olsun…

## Nihat Mehman oğlu Seyidov

*(12.06.1998-15.10.2020)*

## Şəhidlik zirvəsinə ucalmaqla ölümsüzləşdi





Nihatla bərabər ailədə üç övlad böyütmüşəm. Onun yeri tamam başqa idi. Bütün övladlar ata-anaya əziz olur, ancaq, yəqin ki, bütün analar bunu da təsdiq edər ki, ailədəki bir övlad mütləq digərlərindən fərqlənir. Nihat da belə oğul idi. İnsana tez alışan, ünsiyyətcil, mehriban, səmimi… Bir sözlə, Nihat uşaqlıqdan fərqli xarakterə sahib idi. Ən kiçik problemini belə bizə deməzdi. Fikirləşərdi ki, deyərəm, onlar narahat olar. Dərslərini də gücü çatdığı qədər yaxşı oxuyardı. Riyaziyyat fənnini çox sevirdi. Ancaq taleyi elə gətirdi ki, o, elm yolunu yox, hərbçi peşəsini seçdi. Naxçıvanda təhsil aldı, Heydər Əliyev adına Hərbi Liseyi başa vurdu. Sonra xidmətə başladı. Nümunəvi hərbçi kimi seçildi. Kollektivin hörmətini qazandı. Vətənpərvər oğul idi Nihat. 44 günlük Vətən müharibəsində də fəal iştirak etmişdi. Onunla son danışığımız oktyabr ayının 13-ü baş tutdu. Dedi ki, ana, ürəyim səni istədi, dedim bir kefini xəbər alım. Məndən nigaran qalma. Ondan iki gün sonra oktyabr ayının 15-i oğlum şəhid oldu.



Döyüş yoldaşları deyir ki, Nihat əsl qəhrəman kimi döyüş yolu keçdi. Müharibədə şücaət göstərdi. Bir an belə olsun, geri çəkilmədi. Müharibənin ən qızğın yerində belə döyüş yoldaşlarına ruh yüksəkliyi verdi. Qələbə əzmini bir an belə olsun, itirmədi. Və şəhidlik zirvəsinə ucaldı. Düzdür, onun şəhadəti ailəmizi çox sarsıtdı. Ancaq təsəllimiz o oldu ki, torpaqlarımız azaddır. İnanırsınız, onun ölümündən sonra tez-tez özümə bu sualı verirdim ki, görəsən həqiqətənmi oğlum cənnətdədir? Görəsən həqiqətənmi Nihat əbədi həyatdadır, yaşayır? Hər zaman deyirdim ki, İlahi, nə olar mənə bir işarə ver. Bilim ki, övladım yaşayır. Heç unutmuram, bir gün axşam yenə bu düşüncədə idim ki, birdən Nihatın otağından səs eşitdim. Atasına dedim ki, Mehman, qalx evə nəzər elə gör gələn səs nədir? Atası evi yoxlaya-yoxlaya gedib Nihatın otağına çıxmışdı. Görmüşdü ki, otağın bir tərəfindəki xarıbülbül təsvirli suvenir qopub yerə düşüb. Halbuki həmin əşya aylardır ki, orada idi. Heç vaxt yerə düşməmişdi. Həmin hadisədən sonra özümə təskinlik verdim ki, deməli, Allahdan gələn işarə bu imiş. Deməli, oğullarımız yaşayır. Onlar hər zaman bizim qəlbimizdə yaşayacaq, var olacaq. Allah şəhidlərimizə rəhmət eləsin. Mən övladımla fəxr edirəm!

## Ələsgər Zakir oğlu Əsgərov

*(12.05.1997-19.09.2023)*

## Ələsgər adını tarixə ən gözəl şəkildə yazdırdı





Bütün analar kimi mənim üçün də övlad itkisini sözlə ifadə etmək çox ağırdır, çətindir. Ancaq şəhidliyin müqəddəs ölüm olduğunu düşünəndə qismən yüngülləşirəm. Rahatlıq, təsəlli tapıram. Eyni zamanda bütün şəhid valideynləri kimi qürurluyam. Fəxr edirəm Ələsgərimlə.

Ələsgər iki bacının bir qardaşı idi. Bacılarından 11 il sonra dünyaya gəlmişdi. Ailəmizə sevinc, xoşbəxtlik gətirmişdi. O, doğulan gün sevincimizin həddi-hüdudu yoxuydu. Kiçik yaşlarından çox mehriban, qayğıkeş idi. Səliqə-sahmana ciddi fikir verərdi. Həmyaşıdları arasında da xətir-hörmət qazanmışdı. Orta təhsilini Naxçıvan şəhərindəki 5 nömrəli tam orta məktəbdə aldı. Məktəbdə oxuyanda müəllimləri hər zaman razılıq edirdi. Hazırcavab idi. Dərslərinə böyük həvəslə hazırlaşırdı. Heç vaxt ondan narazılıq eşitmədik. Orta məktəbi yaxşı bitirdi. Ali təhsil aldı. Ancaq öz ixtisası üzrə işləmədi. Uşaqlıq arzusunun dalınca getdi. Polis oldu.

2020-ci ildə qazandığımız qələbə hər birimizə böyük sevinc gətirdi. Elə Ələsgərin də dilindən düşməzdi ordumuzun zəfəri. 2023-cü ilin avqust ayının sonunda xidməti fəaliyyəti ilə əlaqədar Şuşaya yollanmışdı. Ancaq məndən gizlətmişdi. Zəng edirdim, cavab vermirdi. Nigaran qalmışdım. Sonra Şuşadan şəkillər çəkdirib atdı ki, ana, narahat olma. Hər şey yaxşıdır, burada xidmətimi aparıram. Torpaqlarımız azad olunsa da, yenə də içimdə qorxuyla yaşayırdım. Erməni təxribatlarına görə narahat idim. Tale elə gətirdi ki, ölkəmizin suverenliyinin təmin olunmasında övladımın da payı oldu. Ötən ilin sentyabr ayında aparılan antiterror əməliyyatlarında Ələsgər də iştirak etdi. Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid oldu.

Evimizin hər küncü, bucağı Ələsgərli xatirələrlə doludur. Bu gün bütün şəhid ailələri kimi dövlətimiz bizə də qayğı ilə yanaşır. O, indi təkcə mənim deyil, bütün Azərbaycan xalqının övladıdır. Qəhrəman polisdir. Adını tarixə ən gözəl şəkildə yazdırdı. Ələsgərin heç vaxt unudulmayacaq adısanı vardır. Ölkə başçısının Sərəncamı ilə “Vətən uğrunda” medalına layiq görülüb. Qəhrəmanlığını göstərən bu yadigarı, bir də gözəl xatirələri daim bizimlə olacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin!



# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2024-cü ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 10.12.2024, saat $10^{30}$, Sədərək rayonu, Heydərabad qəsəbəsi, icra nümayəndəliyinin inzibati binası | Əhmədov Vətən Abbas oğlu, 050-453-14-49 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 21.12.2024, saat $11^{00}$, Sədərək rayonu, Qaraağac kəndi, icra nümayəndəliyinin inzibati binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 03.12. 2024, saat $11^{30}$, Şərur rayonu, Axaməd kəndi, icra nümayəndəliyinin inzibati binası, 07.12. 2024, saat $11^{00}$, Şərur rayonu, Kərimbəyli kəndi, icra nümayəndəliyinin inzibati binası, 07.12. 2024, saat $12^{30}$, Şərur rayonu, Qorçulu kəndi, icra nümayəndəliyinin inzibati binası | Əhmədov Rəşad Məhəmməd oğlu, 050-593-57-08 Abbasov Hüseyin Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 4 saylı Yengicə seçki dairəsi üzrə Abbasov Əli Feyzulla oğlu | 20.12.2024, saat $16^{00}$, Şərur rayonu, Qarxun kəndi, kənd mədəniyyət evi | Nəcəfov Milad Niyaz oğlu, 060-201-11-91 |
| 5. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 16.12.2024, saat $16^{00}$, Şərur rayonu, Muğanlı kəndi, icra nümayəndəliyinin inzibati binası, 25.12.2024, saat $15^{00}$, Şərur rayonu, Alışar kəndi, icra nümayəndəliyinin inzibati binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 6. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 09.12.2024, saat $11^{00}$, Şərur rayonu, Çərçiboğan kəndi, icra nümayəndəliyinin inzibati binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-13 |
| 7. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 06.12.2024, saat $10^{00}$, Şərur rayonu, Sərxanlı kəndi, icra nümayəndəliyinin inzibati binası, 06.12.2024, saat $12^{00}$, Şərur rayonu, Dərvişlər kəndi, icra nümayəndəliyinin inzibati binası, 20.12.2024, saat $10^{00}$, Şərur rayonu, Kosacan kəndi, icra nümayəndəliyinin inzibati binası, 20.12.2024, saat $12^{00}$, Şərur rayonu, Muğancıq-Müslüm kəndi, icra nümayəndəliyinin inzibati binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 8. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 16.12.2024, saat $15^{00}$, Şərur rayonu, Zeyvə kəndi, icra nümayəndəliyinin inzibati binası | Əhmədova Fatimə Hüseyn qızı, 060-209-99-93 |
| 9. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 05.12.2024, saat $15^{00}$, Şərur rayonu, Mahmudkənd kəndi, icra nümayəndəliyinin inzibati binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 |
| | | 11.12.2024, saat $15^{00}$, Şərur rayonu, Oğlanqala kəndi, icra nümayəndəliyinin inzibati binası | Hüseynov Ənvər Ələsgər oğlu, 060-416-95-10 |
| | | 19.12.2024, saat $15^{00}$, Şərur rayonu, Məmmədsabir kəndi, icra nümayəndəliyinin inzibati binası, 27.12.2024, saat $15^{00}$, Şərur rayonu, Muğancıq-Mehrab kəndi, icra nümayəndəliyinin inzibati binası | Nəcəfov Məhəmməd Ramazan oğlu, 060-310-07-06 |
| 10. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 23.12.2024, saat $15^{00}$, Şərur rayonu, Şərur şəhəri, Şərur Şəhər Mərkəzi Kitabxanasının inzibati binası | İsmayılova Mahı Arif qızı, 070-755-00-76 |
| 11. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 20.12.2024, saat $11^{00}$, Şərur rayonu, Yuxarı Yaycı kəndi, icra nümayəndəliyinin inzibati binası | Kərimova Tərifə Məmməd qızı, 050-719-85-39 |
| 12. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 04.12.2024, saat $15^{00}$, Şərur rayonu, Qışlaqabbas kəndi, icra nümayəndəliyinin inzibati binası, 10.12.2024, saat $15^{00}$, Şərur rayonu, Tumaslı, Diyadin, Vayxır kənd sakinləri, Tumaslı kəndi, icra nümayəndəliyinin inzibati binası, 18.12.2024, saat $15^{00}$, Şərur rayonu, Yeni Havuş və Xətai kəndləri, icra nümayəndəliyinin inzibati binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 13. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 16.12.2024, saat $15^{00}$, Şərur rayonu, Püsyan və Təzəkənd kənd sakinləri, Püsyan kənd icra nümayəndəliyi | İbrahimov Allahverdi İsa oğlu, 050-571-33-03 |
| 14. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 10.12.2024, saat $11^{00}$, Kəngərli rayonu, Qarabağlar kəndi, icra nümayəndəliyinin inzibati binası, | Əhmədzadə Əhməd İlqar oğlu, 050-804-68-00 |
| | | 17.12.2024, saat $11^{00}$, Kəngərli rayonu, Yurdçu kəndi, icra nümayəndəliyinin inzibati binası, | |
| | | 24.12.2024, saat $11^{00}$, Kəngərli rayonu, Qabıllı kəndi, icra nümayəndəliyinin inzibati binası | |
| 15. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 02.12.2024, saat $11^{00}$, Kəngərli rayonu, Böyükdüz kəndi, icra nümayəndəliyinin inzibati binası, 06.12.2024, saat $10^{30}$, Kəngərli rayonu, Şahtaxtı kəndi, icra nümayəndəliyinin inzibati binası, 09.12.2024, saat $10^{40}$, Kəngərli rayonu, Qıvraq qəsəbəsi, icra nümayəndəliyinin inzibati binası | Məmmədova Vəfa Elman qızı, 060-491-30-96 |
| 16. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 04.12.2024, saat $16^{00}$, Kəngərli rayonu, Yeni Kərki kəndi, icra nümayəndəliyinin inzibati binası, 25.12.2024, saat $16^{00}$, Kəngərli rayonu, Xok kəndi, icra nümayəndəliyinin inzibati binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 17. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 25.12.2024, saat $15^{00}$, Babək rayonu, Nehrəm qəsəbəsi, icra nümayəndəliyinin inzibati binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 18. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 13.12.2024, saat $15^{00}$, Babək rayonu, Nehrəm qəsəbəsi, icra nümayəndəliyinin inzibati binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 19. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 17.12.2024, saat $10^{00}$, Babək rayonu, Yarımca kəndi, icra nümayəndəliyinin inzibati binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 20. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 18.12.2024, saat $11^{00}$, Babək rayonu, Naxışnərgiz kəndi, icra nümayəndəliyinin inzibati binası | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 21. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 23.12.2024, saat $15^{00}$, Babək rayonu, Kərimbəyli kəndi, icra nümayəndəliyinin inzibati binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 22. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 04.12.2024, saat $11^{00}$, Babək rayonu, Yuxarı Buzqov kəndi, icra nümayəndəliyinin inzibati binası, 11.12.2024, saat $11^{00}$, Babək rayonu, Aşağı Buzqov kəndi, icra nümayəndəliyinin inzibati binası, 11.12.2024, saat $14^{00}$, Babək rayonu, Gərməçataq kəndi, icra nümayəndəliyinin inzibati binası, 18.12.2024, saat $11^{00}$, Babək rayonu, Payız kəndi, icra nümayəndəliyinin inzibati binası, 18.12.2024, saat $14^{00}$, Babək rayonu, Gülşənabad kəndi, icra nümayəndəliyinin inzibati binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 23. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 06.12.2024, saat $11^{00}$, Babək rayonu, Cəhri qəsəbəsi, icra nümayəndəliyinin inzibati binası, 26.12.2024, saat $11^{00}$, Babək rayonu, Cəhri qəsəbəsi, 2 nömrəli tam orta məktəb binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90 |
| 24. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 16.12.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, Qaraxanbəyli kəndi, icra nümayəndəliyinin inzibati binası, 23.12.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, Qaraçuq kəndi, icra nümayəndəliyinin inzibati binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 25. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 10.12.2024, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı sahə icra nümayəndəliyi, 24.12.2024, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı sahə icra nümayəndəliyi | Hüseynli Bəhriyə Məzayıl qızı, 060-387-07-77, 036-550-08-29 |
| 26. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 09.12.2024, saat $11^{00}$, Naxçıvan şəhəri, 1 saylı Mənzil İstismar İdarəsinin inzibati binası, 27.12.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, Hacıniyyət kəndi sakinləri səyyar qəbul | Əliyev Səfər Səxavət oğlu, 060-485 25-85 Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 27. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 04.12.2024 saat $15^{00}$, Naxçıvan şəhəri, 2 nömrəli tam orta məktəb, 18.12.2024, saat $15^{00}$ Naxçıvan şəhəri, 10 nömrəli tam orta məktəb | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 28. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 06.12.2024, saat $16^{00}$, Naxçıvan şəhəri, 8 nömrəli tam orta məktəb, 20.12.2024, saat $16^{00}$, Naxçıvan şəhəri, 4 nömrəli tam orta məktəb | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 29. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 20.12.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 7 nömrəli tam orta məktəb | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 30. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 10.12.2024, saat $11^{00}$, Naxçıvan şəhəri, A.Cəlilov adına 12 nömrəli tam orta məktəb, 20.12.2024, saat $11^{00}$, Naxçıvan şəhəri, A.Cəlilov adına 12 nömrəli tam orta məktəb | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 31. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 20.12.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, Çənlibel məhəlləsi, 24, 24a, 25, 27 və 28 nömrəli bina sakinləri, 14 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 32. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 06.12.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 35, 36-cı məhəllə sakinləri, 17 nömrəli tam orta məktəbin binası, 16.12.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 49-cu məhəllə sakinləri, 3 nömrəli uşaq musiqi məktəbinin binası, 28.12.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, 50-52-ci məhəllə sakinləri, səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 33. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünya-malıyeva Aysel Məmməd qızı | 11.12.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, İ.Səfərli adına 1 nömrəli tam orta məktəbin binası, 19.12.2024, saat $15^{00}$, Naxçıvan şəhəri, İ.Səfərli adına 1 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 34. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 05.12.2024, saat $11^{00}$, Şahbuz rayonu, Keçili kəndi, icra nümayəndəliyinin inzibati binası, 11.12.2024, saat $11^{00}$, Şahbuz rayonu, Nursu kəndi, icra nümayəndəliyinin inzibati binası, 13.12.2024, saat $11^{00}$, Şahbuz rayonu, Mahmudoba kəndi, icra nümayəndəliyinin inzibati binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 35. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 05.12.2024, saat $11^{00}$, Şahbuz rayonu, Kükü kəndi, icra nümayəndəliyinin inzibati binası, 20.12.2024, saat $11^{00}$, Şahbuz rayonu, Aşağı Qışlaq kəndi, icra nümayəndəliyinin inzibati binası | Adilzadə Adil Azər oğlu, 060-307-07-37 |
| 36. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 18.12.2024, saat $15^{00}$, Şahbuz rayonu, Şada kəndi, icra nümayəndəliyinin inzibati binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 37. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 03.12.2024, saat $10^{00}$, Culfa şəhəri, icra nümayəndəliyinin inzibati binası, 23.12.2024, saat $10^{00}$, Culfa şəhəri, icra nümayəndəliyinin inzibati binası | Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69; 077-569-43-65 |

| | | | |
|---|---|---|---|
| 38. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 10.12.2024, saat $11^{00}$, Culfa rayonu, Dizə kəndi, icra nümayəndəliyinin inzibati binası | Əliyev Əli Şəmsəddin oğlu, 050-740-20-27 Canbaxşiyev Səməd Canbağış oğlu 060-252-15-19 |
| 39. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 10.12.2024, saat $11^{00}$, Culfa rayonu, Əbrəqunus kəndi, icra nümayəndəliyinin inzibati binası, 19.12.2024, saat $11^{00}$, Culfa rayonu, Ərəzin kəndi, icra nümayəndəliyinin inzibati binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 40. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 10.12.2024, saat $10^{00}$, Culfa rayonu, Boyəhməd kəndi, icra nümayəndəliyinin inzibati binası, 24.12.2024, saat $10^{00}$, Culfa rayonu, Teyvaz kəndi, icra nümayəndəliyinin inzibati binası | Gözəlov Zəkəriyyə Tahir oğlu, 060-289-61-62, 050-289-61-62 |
| 41. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 23.12.2024, saat $15^{00}$, Şərur Rayon İcra Hakimiyyətinin inzibati binası, 25.12.2024, saat $15^{00}$, Culfa Rayon İcra Hakimiyyətinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul sektoru, 036-544-01-43 |
| 42. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 05.12.2024, 19.12.2024, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası, 17.12.2024, saat $15^{00}$, Ordubad rayonu, Nüsnüs kəndi, icra nümayəndəliyinin inzibati binası | Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 43. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 13.12.2024, saat $11^{00}$, Ordubad rayonu, Kələki kəndi, icra nümayəndəliyinin inzibati binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01, 557-37-59 |
| 44. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 03.12.2024, saat $15^{00}$, Ordubad rayonu, Çənnəb kəndi, icra nümayəndəliyinin inzibati binası, 17.12.2024, saat $15^{00}$, Ordubad rayonu, Azadkənd kəndi, icra nümayəndəliyinin inzibati binası | Səfərov Vüsal Ramiz oğlu, 060-487-57-47 |
| 45. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 14.12.2024, saat $12^{00}$, Ordubad rayonu, Kələntər Dizə kəndi, icra nümayəndəliyinin inzibati binası, 14.12.2024, saat $15^{00}$, Ordubad rayonu, Sabirkənd kəndi, icra nümayəndəliyinin inzibati binası | Əhmədov Suat Yusif oğlu, 060-200-09-30 |

# Qəzetçiliyin görünməyən zəhmətkeşləri



*Jurnalistin, yazıçının, şairin əlindən çıxan yazı məhsulu o vaxt xalqın sərvətinə çevrilir ki, o, qəzetdə, kitablarda işıq üzü görsün və hamı üçün əlçatan olsun. Jurnalist və ya yazıçı, şair yazıb ərsəyə gətirdiyi məqaləni, əsəri, şeiri yaxşı tərtibatla nəşr edilən qəzet və kitab səhifələrindən oxuyanda öz əməyi ilə bərabər, onunla yanaşı, zəhmət çəkənlərə də minnətdarlıq duyur. Bu gün illər öncəki qəzetləri vərəqləyərkən onların necə çətinliklə ərsəyə gəldiyini düşündükcə, həmin illərdə bu qəzetin nəşrində gecə-gündüz çalışan insanları düşünür, ehtiramla anırıq. Həmin günlərdə çox yox, 30-40 il bundan öncə indiki kimi müasir avadanlıqlar yox idi. 70-80-ci illərdə mətbəədə işləmək həm çətin idi, həm də məsuliyyətli. O vaxt mətbəədə hər bir kəsin işi çətin olsa da, çapçıların işi daha ağır idi. Zəhərli maddələrlə işləmək insan sağlamlığına da təsirsiz ötüşmürdü. Amma buna baxmayaraq, məsuliyyətlə çalışır, ən çətin vaxtlarda işlərinin öhdəsindən gəlirdilər.*

Soyuq qış, isti yay demədən qəzeti iki dildə çapa hazırlayan redaksiya işçilərinin gününün çoxu yollarda keçirdi. Çünki redaksiya şəhərin bu başında mətbəə isə o başında idi. Sonralar redaksiyanın beş on metrliyində fəaliyyət göstərməyə başlayan mətbəədə işlər elə də asan deyildi. Qəzetin nəşrinin düzgün aparılması çox məsuliyyət tələb edirdi. Çünki bir hərfin yerinə düzgün qoyulmaması belə insanların taleyini dəyişə bilirdi. Cəfakeş insanların səyi nəticəsində qələm sahiblərinin yazıları yaddaşa köçürüldü, illər ötdükcə, dünya müasirləşdikcə redaksiyanın işi ilə bərabər mətbəə işi də müasirləşdi. On ildən çoxdur ki, "Şərq qapısı" qəzeti ilə eyni binada fəaliyyət göstərən "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin əməkdaşlarının 103 yaşlı qəzetin daha rəngarəng şəkildə oxuculara çatmasında böyük payı olduğunu hər kəs yaxşı bilir. Çünki qəzetçilikdə mətbəə işinin rolu danılmazdır. Bu mənada, qəzetimizin ərsəyə gəlməsində "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi kollektivinin əməyi böyükdür.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin fəaliyyəti ilə tanış olduqda öyrənirik ki, 1921-ci ildə Naxçıvanda ilk çap sexi yaradılıb və bu müəssisə 1938-ci ilədək "Şərq qapısı" qəzeti redaksiyasının nəzdində olan mətbəə kimi fəaliyyət göstərib. Bundan sonra isə "Naxçıvan mətbəəsi" adı ilə müstəqil müəssisəyə çevrilib. Uzun illər ərzində müxtəlif yerlərdə uyğunlaşdırılmış binalarda köhnə avadanlıqlarla fəaliyyət göstərən müəssisənin işində əsaslı dönüş 2001-ci ildən sonra yaranıb. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin də fəaliyyəti üçün əlverişli şərait yaradılıb və maddi-texniki bazası möhkəmləndirilib. Burada "Şərq qapısı" və "Məktəbli" qəzetlərinin, habelə müxtəlif kitab və jurnalların rəngli formatda nəşr olunması yüksək səviyyədə həyata keçirilir. Bunlardan əlavə, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən müəssisə və təşkilatlar üçün dəftərxana kitabları, sadə və ciddi hesabat blankları, müxtəlif qəbzlər, təqvimlər, etiketlər, dəftərlərin hazırlanması həyata keçirilir. Müəssisəyə dövlət sifarişlərindən başqa, muxtar respublikada fəaliyyət göstərən elm və mədəniyyət müəssisələri tərəfindən də müxtəlif çap sifarişləri daxil olur, bu məhsullar yüksək standartlar və müasir dizayn əsasında qısa müddətdə hazırlanır. Birlik 2001-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin balansına verilərək yüksək qayğı ilə əhatə olunub.

Qələmə aldığımız hər hansı bir məqalənin, yaxud redaktə və tərtib etdiyimiz qəzetin işıq üzü gördüyü, oxucu əlinə çatdığı gün heç olmazsa bir-iki yazı









barədə müsbət fikirlər eşitdiyimiz an bizim sevincli günümüz, sözün həqiqi mənasında, bayramımız olur. Ona görə ki, hər kəsin fəaliyyət istiqaməti cəmiyyətdir və cəmiyyətə verilən dəyərli, uzun müddət yaşayan, kütlə tərəfindən qəbul edilən, onu narahat edən halları əks etdirən və uğurlu alınan nə varsa, yazı müəllifini sevindirir, fərəhləndirir, qürurlandırır.

103 yaşlı doğma "Şərq qapısı" fəaliyyətə başladığı bir gündən qəzetin redaksiyası öz qapılarını yüzlərlə yaradıcı insanın üzünə açıb. Qələm sahiblərinin maraqlı məqalələri qəzet səhifələrini bəzəyib. Qəzet yüzlərlə çap nüsxəsi ilə evlərimizin qonağı olub. Qəzetdə məqaləsi dərc olunan hər bir kəs üçün onun tərtibatı da çox önəmlidir. Əlimizə aldığımız qəzet kollektiv işdir, onun ərsəyə gəlməsi birgə fəaliyyət tələb edir. Kollektiv deyəndə isə bizim xəyalımızda təkcə qəzetimizin əməkdaşları canlanmır. Nəşriyyatda doğma qəzetin çapında əməyi olan insanlar da bizim üçün doğma kollektiv kimidir. Hər səhər, hər axşam üz-üzə gəldiyimiz kef-əhval tutduğumuz doğmalarımızdır. 103 ildir, nəşriyyat da qəzetlə bərabər eyni yolda addımlayır. Bu yoldakı insanlar, simalar illər keçdikcə dəyişsə də, amalımız birdir. Doğma diyarımızın bu gününü salnaməyə çevirib gələcəyə daşımaq.

**Ramiyə ƏKBƏROVA**

## Elan

Beton qəlib sistemlərində işləməyi bacaran peşəkar işçilər axtarılır:

1. Qəlibçilər – Gündəlik əməkhaqqı: 40-45 AZN
2. Dəmirçilər – Gündəlik əməkhaqqı: 40-45 AZN
3. Fəhlələr – Gündəlik əməkhaqqı: 25-27 AZN

**Qeyd:**
Gündəlik iş norması artıqlaması ilə yerinə yetirildikdə işçilərə əlavə pul mükafatı veriləcək.

***Əlaqə üçün:***
***Telefon: (060-232-00-55), (051-967-97-91)***

## İtmişdir

Şərur rayonu, Mahmudkənd sakini Qasımova Cavahir Salam qızının adına olan JN-541A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kəndində yaşamış Əliyeva Zivər Hüseyn qızının adına olan JN-96A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Çənnəb kənd sakini Qurbanov Qurban Təyyub oğlunun adına olan 2896 nömrəli texniki pasport və MH-0011377 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Ağayev Seymur Famil oğlunun adına olan 102013008995 reyestr nömrəli Muğancıq-Mehrab kəndində yerləşən torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kəndində yaşamış Gülmalıyev Rafiq Yaqub oğlunun adına olan JN-842A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Azadkəndində yaşamış Muradov Namiq Bəhlul oğlunun adına olan 2886 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xələc kənd sakini Qəhrəmanova Səfiyə Səfəralı qızının adına olan 102013022861 reyestr nömrəli plan-ölçü və çıxarış itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Regional Peşə Hazırlığı Mərkəzi publik hüquqi şəxs tərəfindən Kamiloğlu Siruz Kamil oğlunun adına 2018-ci ildə verilmiş A-005890 nömrəli sertifikat itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dizə kənd sakini İmanov Rüşdü Müzəffər oğlunun adına olan JN-384A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Axundova Nurşən Vəzir qızının adına olan AD-0062037 nömrəli qadın hərbi qulluqçu "əsgər kargüzarlıq rəisi"nin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dırnıs kənd sakini Babayev Sadıq Yusifəli oğlunun adına olan JN-3B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kənd sakini Məmmədova Səkinə Heydər qızının adına olan JN-745 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kəndi sakini Hüseynov İman Məhərrəm oğlunun adına olan JN-362A nömrəli, 10800038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Regional Peşə Hazırlığı Mərkəzi publik hüquqi şəxs tərəfindən Hüseynov Cəmşid Həsən oğlunun adına verilən sertifikat itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Məmmədov Bahadur Heydər oğlunun adına olan JN-175 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
**Baş redaktor:**
**SARA ƏZİMOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 349

*Nömrəyə məsul:* **Gülcamal Tahirova, Aidə İbrahimova, Bülbül Quliyeva**
*Dizayner:* **Lətif Zeynalov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*